# "ÖDƏNİŞSİZ HÜQUQİ YARDIM HAQQINDA"

**qanun layihəsinin əsaslandırılmasına dair**

# K O N S E P S İ Y A   S Ə N Ə D İ

***(Konsepsiya sənədi "Azərbaycanda hüquqi yardım institutunun təşviqi" Layihəsi çərçivəsində hazırlanmışdır)***


**MÜƏLLİF:** "Azərbaycanda hüquqi yardım institutunun təşviqi"
Layihəsi üzrə İşçi Qrup



**Bakı – 2012**

# "ÖDƏNİŞSİZ HÜQUQİ YARDIM HAQQINDA"
# QANUN LAYİHƏSİNİN ƏSASLANDIRILMASINA DAİR

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. "Ödənişsiz hüquqi yardım" ideyası və onun məqsədi;

1.2. Xarici ölkələrin təcrübəsi;

1.3. "Ödənişsiz hüquqi yardım haqqında" qanun layihəsinin hüquqi tənzimetmə predmeti;

## 2. ÖDƏNİŞSİZ HÜQUQİ YARDIMIN GÖSTƏRİLMƏSİ SAHƏSİNDƏKİ CARİ VƏZİYYƏT

2.1. Ödənişsiz hüquqi yardımın göstərilməsi sahəsində yerli və beynəlxalq qanunvericiliyin təhlili;

2.2. Ödənişsiz hüquqi yardımın göstərilməsi sahəsində mövcud olan problemlər.

## 3. "ÖDƏNİŞSİZ HÜQUQİ YARDIM HAQQINDA" QANUNUN QANUNVERİCİLİK SİSTEMİNƏ İMPLEMENTASİYASI

3.1. Qanunun hüquq sahələri ilə əlaqəsi;

3.2. "Ödənişsiz hüquqi yardım" ideyasının Konstitusiyada yeri;

3.3. "Ödənişsiz hüquqi yardım" ideyasının digər normativ hüquqi aktlardakı yeri;

3.4. "Ödənişsiz hüquqi yardım haqqında" qanunun tətbiqinin sosial-hüquqi nəticələri;

3.5. "Ödənişsiz hüquqi yardım haqqında" qanun layihəsinin dövlət büdcəsindəki yeri.

**ƏLAVƏ:** *Qanun layihəsi*

# 1. ÜMUMİ MÜDDƏALAR

## 1.1. "Ödənişsiz hüquqi yardım" ideyası və onun məqsədi

Günümüzdə "ödənişsiz hüquqi yardım" ideyasını mahiyyət etibarı ilə əsas insan hüquq və azadlıqlarından ayrı təsəvvür etmək mümkün deyildir. Hətta bu hüquq dünya ölkələrinin əksəriyyətində konstitusion səviyyədə təsbit olunmuşdur. Lakin əksər hallarda insanların bu hüquqdan yararlanmaları dövlət üçün müxtəlif maliyyə məhrumiyyətləri ilə müşayiət olunur. Bu mənada ödənişsiz hüquqi yardımın işinin inkişafı və miqyası müxtəlif ölkələrin milli xüsusiyyətləri ilə şərtlənməkdədir. Belə ki, hüquqi yardım sisteminin təşkili və maliyyələşdirilməsinə ölkədə mövcud olan siyası mühit, sosial proseslər, həmçin müxtəlif peşə birliklərinin (məs. vəkillər kollegiyalarının) oynadığı rol mühüm təsir göstərməkdədir.

Keçən əsrin ortalarından etibarən ödənişsiz hüquqi yardımın göstərilməsi məsələsinin öyrənilməsi ilə əsasən, sosioloqlar məşğul olmuşlar. Onlar ödənişsiz hüquqi yardımın göstərilməsinin iki modelinə - "*judicare*" və "*welfare*"ə əsaslanıldığını qeyd etmişlər. *Judicare* modelinin əsasında ilk dövrlər xeyriyyə işinin görülməsi dururdu. Belə xeyriyyə fəaliyyəti çərçivəsində hüquqşünaslar heç bir ödəniş almadan insanlara hüquqi yardım göstərirdilər. Belə yardım müxtəlif əlamətdar günlərdə həyata keçirilirdi və hüquqşünaslar bunu boyunlarının borcu hesab edirdilər. Hüquqi yardımın göstərilməsi zaman isə yardım göstərilən şəxslərin seçimində xüsusi meyarlar mövcud olmamışdır. Könüllülük əsasında hüquqi yardımın göstərilməsi tendensiyası təqribən keçən əsrin 80-ci illərinin ortalarına – ta ki *judicare* modelinin qəbulunadək davam etmişdir. Bu sistem çərçivəsində dövlətin maliyyəsi əsasında fərdi vəkillərə müəyyən olunmuş şəxslər qrupuna hüquqi yardım göstərilməsi üçün pul ödənilir. Bu sistemə əsasən hüquqi yardım xidmətini ya istənilən hüquqşünas və ya xüsusi şirkətlərlə bağlanmış müqavilə əsasında peşəkar vəkillər göstərə bilərlər. Lakin burada həmin hüquq firmalarının ixtisaslaşmaları nəzərə alınır.

Ödənişsiz hüquqi yardımın göstərilməsi üzrə *welfare* modeli 1960-cı illərdə ABŞ-da o zamankı Prezident Lindon Consonun "Yoxsulluqla mübarizə"[1] proqramı əsasında tətbiq olunmağa başlanılmışdır. Bu model həmçinin "ştatda olan hüquqşanslar" da adlanır. Bu sistemə əsasən, yerli icmaların nəzdində daimi hüquqşünas ştatları formalaşdırılır və bu hüquqşünaslar *judicare* sistemində çalışan peşəkar vəkillərin qatılmadıqları işlərə cəlb olunurlar. Kanada və Avstraliya kimi ölkələr *welfare* modelindən istifadə edənlər sırasındadırlar.

[1] http://en.wikipedia.org/wiki/War_on_Poverty

Dövrümüzdə baş verən sosial dəyişikliklər, siyasi prioritetlərdə və belə xidmətin göstərilməsi üçün ayrılan büdcə vəsaitlərinə istifadə təyinatına yanaşma müxtəlifliyinin mövcudluğu ödənişsiz hüquqi yardımın göstərilməsinin yeni modellərinin yaranmasına gətəirib çıxarmışdır. Hətta bu modellərin hansı sistemə aid olduqları qeyri-müəyyəndir. Alimlər arasında bunlar *qarışıq model* kimi adlandırılır. Qarışıq modelin müəyyənləşdiriməsində əsas meyar kimi ödənişsiz hüquqi yardım xidmətinin səmərəlilik çıxış edir. Bu sistemdə büdcə vəsaitləri xidmətdən yararlanan şəxslərin ehtiyaclarına uyğun olaraq ayrılır ki, bu da həmin vəsaitlərə qənaət edilməsi, habelə izafi xərclərin qarşısının alınması baxımından mühüm əhəmiyyət kəsb edir.

Digər bir məqam ödənişsiz hüquqi yardımın göstərilməsinin səmərəliliyidir. Hüquqi xidmətin optimallaşdırılmasının başlıca istiqamət belə yardımıdan istifadə edəcək şəxslərin əhatə dairəsinin genişliyidir. Əslində, optimallaşdırılmış ödənişsiz hüquqi yardım sistemində ölkə əhalisinin ən azı 50%-i yararlana bilmək hüququna sahib olmalıdırlar. Təbii ki, burada hüquqi yardım göstərliməsi qeyri-məhdud kimi başa düşülməməlidir.

Bununla belə, ödənişsiz hüquqi yardımın daha da səmərəli olması üçün yardım 2 növdə - *məhkəməyə qədər* (ilkin hüquqi yardım) və *məhkəmə zamanı* (peşəkar hüquqi yardım) göstərilməlidir. Məhz bu qaydaya uyğun olaraq və aşağıdakı hüquqi yardımın formaları nəzərə alınmaqla vətəndaşların ödənişsiz hüquqi yardımla təmin edilməsi insanların məhkəmələrə sərbəst çıxışına imkan yaratmış olar:

a) hüquqi məsələlərlə bağlı məlumatlandırmanın həyata keçirilməsi, məsləhət və izahların verilməsi;
b) hüquqi xarakterli sənədlərin hazırlanması;
c) dövlət idarəetmə orqanlarında təmsil etmə;
d) cinayət prosesi çərçivəsində şübhəli, təqsirləndirilən şəxslərin maraqlarının müdafiəsi;
e) məhkumun maraqlarının müdafiəsi və təmsil olunması;
f) inzibati xətalara dair işlər üzrə məhkəmə icraatı zamanı şəxsin maraqlarının müdafiəsi;
g) şəxsin mülki proses zaman maraqlarının müdafiəsi və təmsil olunması;
h) şəxsin maraqlarının inzibati-iqtisadi məhkəmələrdə müdafiəsi və təmsil olunması.

*İlkin hüquqi yardım* dedikdə hər hansı ölkənin hüquq sistemi, qüvvədə olan normativ aktlar, hüquq subyektlərinin hüquq və vəzifələri, məhkəmədənkənar və məhkəmə qaydasında hüquqların həyata keçirilməsi və onlardan istifadə olunması üsulları barədə məlumatlandırma; hüquqi məsələlər üzrə məsləhətlərin verilməsi; hüquqi xarakterli

sənədlərin hazırlanmasına kömək göstərilməsi nəzərdə tutulur. *Peşəkar hüquqi yardım* dedikdə isə hüquqi məsləhətin verilməsi, cinayət işi, inzibati xətalar, mülki və inzibati işlərlə bağlı cinayət təqibi orqanlarında, məhkəmələrdə, habelə dövlət idarəetmə orqanlarında təmsil edilmə nəzərdə tutulur.

## 1.2. Xarici ölkələrin təcrübəsi

| Ölkə | Hüquqi yardım göstərilməsinə cavabdehlik daşıyan qurum | Hüquqi yardım göstərə bilən şəxslər | Hüquqi yardımın göstərildiyi sahələr | Hüquqi yardımın göstərilmə formaları | Hüquqi yardımdan yararlanan şəxslər | Hüquqi yardımın göstərilmə şərtləri | Fəaliyyətin hüquqi tənzimlənilməsi forması |
|---|---|---|---|---|---|---|---|
| **Türkiyə** | Ədliyyə Nazirliyi, Vəkillər Kollegiyası, Regional Vəkillər Ofisi | Vəkillər, stajor vəkillər | Mülki və cinayət mühakimə icraatları | Mülki və cinayət işləri üzrə məhkəmə təmsilçiliyi | Aztəminatlı şəxlər | Hüquqi yardın həmin şəxslər bələdiyyə sədrinin arayışı əsasında göstərilir. Arayışda şəxsin dövlətə ödədiyi vergilərin miqdarı, ailə və əmlak vəziyyəti və s. əks olunur. | Türkiyə Vəkillər Kollegiyasının qəbul etdiyi müvafiq təlimat. Cinayət və mülki prosessual qanunvericilik |
| **Gürcüstan** | İslah və Hüquqi Yardım Nazirliyi nəzdində fəaliyyət göstərən Hüquqi Yardım Xitməti, hüquqi yardım büroları | Hüquqşünaslar və vəkillər | Cinayət, mülki, inzibati sahə | a) Hüquqi sənədlərin hazırlanması; b) Cinayət prosesində təqsirləndirilən və ya məhkum olunmuş şəxsin hüquqlarının müdafiəsi; c) Cinayət hadisəsi nəticəsində zərər çəkmiş şəxslərin müdafəsi; d) Mülki və inzibati işlər üzrə məhkəmə təmsilçiliyi. | Aztəminatlı şəxslər | Şəxsin aztəminatlı olmasını müəyyən ləşdirməh üçün Hüquqi Yardım Bürosu müvafiq icra hakimiyyəti orqanına sorğu göndərir. | Ayrıca qanun |
| **Finlandiya** | Hüquqi yardım büroları | Hüquqşünaslar və vəkillər | İstənilən hüquq sahəsi | a) Şifahi hüquqi məsləhətin verilməsi; b) Məhkəmələrdə təmsilçilik; c) Müxtəlif dövlət orqanlarında təmsilçilik. | Aztəminatlı şəxslər, bəzi hallarda hüquqi şəxslər də | Gəlir bəyannaməsinin təqdim olunması vasitəsi ilə. Vətəndaşların illik gəlir norması Hökumət Şurasının qərarı əsasında müəyyənləşdirilir. | Ayrıca qanun |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Niderland Krallığı** | Hüquqi Yardım Şurası, Hüquqi yardım ofisləri | Hüquqşünaslar və vəkillər | İstənilən hüquq sahəsi | a) Şifahi hüquqi məsləhətin verilməsi; b) Məhkəmələrdə təmsilçilik; c) Müxtəlif dövlət orqanlarında təmsilçilik. | Aztəminatlı şəxslər, bəzi hallarda hüquqi şəxslər də | Şəxsin yaşadığı yerin bələdiyyə sədri pulsuz olaraq hüquqi yardıma ehtiyacı olan şəxsə onun gəliri və əmlak vəziyyəti barədə arayış təqdim edir. Şəxs həmin arayışı Hüquqi Yardım ofisinə tədim edir. | Ayrıca qanun |
| **Yunanstan** | Vəkillər Kollegiyası | Vəkillər, dövlət ittihamçıları | Cinayət, mülki və bir sıra kommersiya işləri üzrə | Məhkəmədə təmsilçilik; Cinayət işləri üzrə məhkum olmuş şəxlərə, habelə aztəminatlı maralı tərəflərə prokuror tərəfindən məsləhətlərin verilməsi | Aztəminatlı fiziki şəxslər | Aztəminatlı şəxs dedikdə Baş Kollektiv Əmək Müqaviləsi üzrə adambaşına düşən illik gəlirin 2/3-dən aşağı gəlirə sahib olan şəxslər nəzərdə tutulur. Həmin şəxslər yaşadıqları ərazi üzrə vəkil bürosuna ərizə ilə müraciət etməlidirlər. | Ayrıca qanun |
| **Rusiya** | Mərkəzi icra hakimiyyətləri orqanları və onların alt qurumları, yerli icra hakimiyyəti orqanları və onlaıan alt qurumları, dövlət hüquq büroları, büdcədənkənar dövlət fondlarını | Vəkillər, ali hüquq təhsilli şəxslər | Istənilən hüquq sahəsi üzrə | a) Yazılı və şifahi formada məsləhətlərin verilməsi; b) Şikayət və ərizələrin habelə digər hüquqi xarakterli sənədlərin hazırlanması; c) Vətəndaşların maraqlarının məhkəmə, bələdiyyə və digər icra orqanların da təmsil olunması. | a) Ailə üzrə adambaşına düşən gəlir yaşayış minimumundan aşağı olan vətəndaşlar; b) I və II qrup əlillər; c) Böyük Vətən müharibəsi veteranları, Milli qəramanlar, Sovet İttifaqı | Hüquqi yardım şəxsin ərizəsi əsasında həyata keçirilir. | Ayrıca qanun |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | ifdarə edən orqanlar və s. | | | | qəhrəmanları, əlil və kimsəsiz uşaq, ahıllar və islah müəssisələrində olan yetkinlik yaşına çatmayanlar və s. | | |
| **Almaniya** | Hüquqi Yardım Mərkəzləri | Hüquqşünaslar və vəkillər | Mülki, cinayət, əmək, inzibati, sosial təminat sahələri üzrə. *Vergi sahəsi üzrə yardım göstərilmir.* | a) Yazılı və şifahi formada məsləhətlərin verilməsi; b) Şikayət və ərizələrin habelə digər hüquqi xarakterli sənədlərin hazırlanması; c) Vətəndaşların maraqlarının məhkəmə, bələdiyyə və digər icra orqanların da təmsil olunması. | Aztəminatlı fiziki şəxslər | Hüquqi yardım şəxsin ərizəsi əsasında göstərilir. Bunun üçün şəxs gəlir və əmlak bəyannaməsi təqdim etməlidir. | Prosessual və ayrıca qanunvericilik |
| **Moldova** | Ədliyyə Nazirliyi, Vəkillər Kollegiyası, Hüquqi Yardım üzrə Milli Şura, ərazi büroları | Vəkillər və ictimai vəkillər, hüquqşünaslar (parayuristlər) | Cinayət, mülki, inzibati və digər sahələr üzrə | a) Yazılı və şifahi formada məsləhətlərin verilməsi; b) Şikayət və ərizələrin habelə digər hüquqi xarakterli sənədlərin hazırlanması; c) Vətəndaşların maraqlarının məhkəmə, bələdiyyə və digər icra orqanların da təmsil olunması. | Aztəminatlı fiziki şəxslər, cinayət və inzibati işlər üzrə təqsirləndirlən və s. şəxslər | Hüquqi yardım şəxsin ərizəsi və ya şifahi müraciəti əsasında göstərilir. Bunun üçün şəxs gəlir və əmlak bəyannaməsi təqdim etməlidir. Hesablama şəxsin son 6 aylıq gəliri nəzərə alınır. | Prosessual və ayrıca qanunvericilik |

## 1.3. "Ödənişsiz hüquqi yardım haqqında" qanun layihəsinin hüquqi tənzimetmə predmeti

Universal beynəlxalq sənədlərdə əks olunmuş əsas insan hüquq və azadlıqlarının ədalətli məhkəmə tərəfindən müdafiəsinin zəururiliyi, hüquqi yardımın göstərilməsi və onun təşkili yolu ilə hüquqi yardıma sərbəst və bərabər çatımlılığın təmin edilməsi, habelə ədalət mühakiməsinə çatımlılığın həyata keçirilməsində maliyyə-iqtisadi maneələrin ortadan qaldırılıması baxımından dövlət tərəfindən ödənişsiz hüquqi yardımın göstərilməsi xüsusi əhəmiyyət kəsb edir.

"Ödənişsiz hüquqi yardım haqqında" qanun layihəsinin tənzimetmə predmetinə insan hüquq və azdlıqlarının, habelə onun qanuni maraqlarının müdafiəsi məqsədi ilə dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsinin şərtləri, həcmi və qaydaları daxildir.

Lakin hüquqi yardım haqqında qanun layihəsinin hazırlanması zamanı bu qanunun tənzimetmə predmeti ilə vəkillik haqqında qanunvericilyin tənzimetmə predmeti arasında səddi dəqiq müəyyənləşdirmək lazımdır.

Yuxarıda qeyd edildiyi kimi ödənişsiz hüquqi yardımın göstərilməsi ideyasının əsasını insanların məhkəmələrə çatımlılığı prinsipi təşkil edir. Məhkəmələrə çatımlılıq hal-hazırda instənilən konstitusion dövlətdə hakimiyyətlərin bölgüsü və əsas və ayrılmaz insan hüquqlarının təmin edilməsinin əsas şərtlərindəndir. Məşhur ABŞ hüquqşünası Forer yazırdı ki, "insanların məhkəmələrə çatımlılıq hüququ əmək, təhsil, mənzil və s. hüquqlarla eyni səviyyədə təsvvür edilə bilməz. Çünki ədalət mühakiməsi istənilən ölkədə siyasi sistemin əsasıdır."[2] Bu prinsip ilk dəfə beynəlxalq səviyyədə BMT-nin Baş Assambleyasının 1948-ci ildə qəbul etdiyi Ümumdünya İnsan hüquqları haqqında Bəyannamənin 10-cu maddəsində qeyd olunmuşdur. Daha sonra eyni prinsip İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 6-cı maddəsində daha təfərrüatlı qeyd edilmişdir. Belə ki: "*Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Cinayət törətməkdə ittiham olunan hər kəs şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə belə müdafiədən pulsuz istifadə etmək hüququna malikdir.*" Müddəaya əsasən, hakim tərəfindən təqsirləndirilən şəxsə ödənişsiz hüquqi yardım göstərilməsi üçün hüquqşünas təyin edilərkən 2 məqam nəzərə alınmalıdır: a) maraqlı şəxs müdafiəçinin xidmətlərini qarşılığını ödəmək üçün kifayət qədər vəsaitə sahib

---

[2] Forer L. G. Money and Justice. New York; Lndon, 1984. P. 25.

olmamalıdır; b) və belə xidmətin göstərilməsini ədalətli məhkəmə baxışının maraqları tələb edirsə. Məhkəmənin maraqları müəyyənləşdirilərkən baş vermiş hadisənin bütün halları nəzərə alınır. Bu zaman cinayətin ağırlıq dərəcəsi, cəzanın ağırlıq dərəcəsi, cinayət işinin mürəkkəbliyi, hamçinin cinayətkarın şəxsiyyəti əsas meyarlar qismində çıxış etməlidirlər.[3]

Bundan başqa BMT-nin Cinayətkarlıqla mübarizə və cinayətkarlarla rəftara dair 1990-cı il Konqresində "Hüquqşünasların roluna dair" qəbul olunmuş sənəddə "*hüquqşünaslara və hüquqi xidmətlərə çatımlılıq*" prinsipi əks olunmuşdur.

Qeyd olunduğu kimi "Ödənişsiz hüquqi yardım haqqında" qanun layihəsinin tənzimetmə predmetinin əsasını hüquqi yardımın göstərilməsinin şərtləri, həcmi və qaydaları təşkil edir. Qanun layihəsinə əsasən, ödənişsiz hüquqi yardım aşağıdakı şərtlər daxilində aşağıdakı şəxslər üçün təmin edilə bilər:

a) cinayət işləri ilə bağlı hüquqi yardıma ehtiyac yaranan zaman ədalət mühakiməsinin maraqları tələb etdiyi, lakin belə yardımı ödəmək üçün kifayət qədər vəsaitləri olmayan şəxslər;
b) cinayət təqibi və ya inzibati xətalarla bağlı məhkəmə icraatı üzrə tutulmuş şəxslərə təcili hüquqi yardımın göstərilməsinə ehtiyacın yaranması zamanı;
c) Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində göstərilən əsaslarla məcburi hüquqi yardımın göstərilməli olduğu zaman;
d) Azərbaycan Respublikasının mülki-prosessual qanunvericiliyində göstərilən əsaslarla məcburi hüquqi yardımın göstərilməli olduğu zaman;
e) inzibati hüquqpozmalar, mülki və inzibati işlərlə bağlı hüquqi yardıma ehtiyacı olan və bu xidmətin ödənilməsi üçün kifayət qədər vəsaiti olmayan, habelə belə işlərin hüquqi və prosessual cəhətdən mürəkkəbliyi ilə bağlı müraciət edilməsi zamanı;[4]

[3] В.А.Туманова, Комментарий к Конвенции и практике ее применения, Москва 2002, стр. 94
[4] Əlavə 1: Qanun layihəsinin 19-cu maddəsi.

# 2. ÖDƏNİŞSİZ HÜQUQİ YARDIMIN GÖSTƏRİLMƏSİ SAHƏSİNDƏKİ CARİ VƏZİYYƏT

## 2.1. Ödənişsiz hüquqi yardımın göstərilməsi sahəsində yerli və beynəlxalq qanunvericiliyin təhlili

Müstəqil məhkəmə tərəfindən ədalətli məhkəmə baxışı əsasında hüquqların səmərəli bərpa edilməsi bir sıra beynəlxalq hüquq aktlarında, o cümlədən Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxaq Paktın 14-cü maddəsində, insan hüquqları haqqında Ümumi Bəyannamənin 7, 8, 10-cu maddələrinə və İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiyanın (Avropa İnsan Hüquqları Konvensiyasının) 6-cı maddəsində öz əksini tapmışdır.

İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin 8-ci maddəsinə əsasən, hər bir şəxs Konstitusiyanın və ya qanunun ona verdiyi hüquqların pozulması zamanı səlahiyyətli milli məhkəmələr tərəfindən hüquqlarının təsirli şəkildə bərpa olunması hüququna malikdir.

Təsadüfi deyildir ki, Konstitusiyamızın 12-ci maddəsinə əsasən, dövlət insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edir, habelə 25-ci maddənin III hissəsində qeyd edilmişdir ki, dövlət, o cümlədən, əmlak vəziyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.

Konstitusiyanın 61-ci maddəsinə görə hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir və qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir. Bu yardımın nələrdən ibarət olması Azərbaycanın bir sıra qanunvericilik aktalarında verilmişdir.

Ilk öncə qeyd olunmalıdır ki, Cinayət-Prosessual Məcəllənin 14.4-cü maddəsinə əsasən, hər bir tutulmuş və ya həbsə alınmış şəxsə dərhal tutulmanın, yaxud həbsə almanın səbəbləri, habelə şübhənin və ya ittihamın mahiyyəti, ifadə verməmək və müdafiəçi tərəfindən hüquqi yardım almaq hüquqları bildirilməlidir. Dolayısilə cinayət təqibi gedişində təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxslərin keyfiyyətli hüquqi yardım almaq hüququnu təmin etmək üçün tədbirlər görməlidir. Cinayət-prosessual qanunvericiliyə əsasən, müdafiəçi tərəfindən şübhəli və ya təqsirləndirilən şəxsə göstərilən hüquqi yardım müdafiəçi ilə müdafiə olunan şəxs arasında razılaşdırılmış şərtlər əsasında müdafiə olunanın hesabına ödənilir. Lakin şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçinin xidmətlərini ödəməyə kifayət qədər vəsaiti yoxdursa və müdafiəçinin cinayət prosesində iştirakı qanunda göstərilmiş hallarda təmin olunmalıdırsa, cinayət prosesini həyata keçirən orqan həmin şəxsə hüquqi yardımın göstərilməsini Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına təmin etməlidir.

Qeyd olunanlarla bərabər, cinayət prosesində hüquqi yardımın göstərilməsi ilə bağlı bəzi qanunvericilik və təcrübi problemlərə aydınlıq gətirilməlidir.

*Hüquqi məsuliyyətin növlərinə - intizam, inzibati, mülki və cinayət məsuliyyətinə nəzər saldıqda aydın olur ki, məsuliyyətin ən ağırı cinayət məsuliyyətidir. Deməli belə bir məsuliyyətə cəlb olunan şəxsin Konstitusiyada və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hüquq və azadlıqlarının səmərəli müdafiəsi prioritet məsələdir. Qanunvericiliyi təhlil edərkən məlum olur ki, cinayət prosesi iştirakçılarının hüquqi statusunu müəyyən edən Cinayət-Prosessual Məcəllənin 66-99-cu maddələri içərisində həcminə və məzmununa görə ən böyüyü 92-ci maddə, yəni "Müdafiəçi" maddəsidir. Cinayət mühakimə icraatı gedişində müdafiəçinin iştirakı, hüquq və vəzifələri, müdafiəçiyə etməyi qadağan edilən hərəkətlər(şübhəli və ya təqsirləndirlən şəxsin mənafeyi nöqteyi nəzərindən), müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallar adı çəkilən maddədə ətraflı şərh edilmişdir. Müdafiə tərəfinə aid edilən şübhəli və təqsirləndirilən şəxslərin hüquq və azadlıqlarının təmini nəinki 90-92-ci maddələrdə, həmçinin CPM-in bir sıra digər maddələrində öz əksini tapıb.*

*Deyilənlərə baxmayaraq cinayət prosesində iştirakçıların effektiv hüquqi yardım almalarını təmin etmək üçün bir sıra zəruri tədbirlərə ehtiyac var.*

*Cinayət mühakimə icraatında hüquqi yardımın göstərilməsi məsələlərinin bir neçə isiqamətdə təhlili verilə bilər:*

***a. Cinayət prosesində kimlərin səmərəli hüquqi yardıma ehtiyacı var və bu necə əsaslandırılır?***

*- Cinayət-prosessual qanunvericiliyin təhlili onu göstərir ki, qanun cinayət mühakimə icraatında daha çox şübhəli və təqsirləndirilən şəxsin hüquq və azadlıqlarının təminini özündə əks etdirir. Son dövrlər Avropa Şurası, ATƏT və BMT-nin aidiyyəti qurumlarının hesabatlarında, zərərə çəkmiş şəxslərin, şahidlərin hüquqlarının səmərəli müdafiəsinə zərurət olduğunu və üzv ölkələrdə istər qanunvericilik baxımından, istərsə də real təcrübi nöqteyi-nəzərindən bu işin zəif aparılması dönə-dönə qeyd olunur.*

*Hesab edirik ki, ödənişsiz hüquqi yardım göstərilməsi ilə bağlı Konsepsiya layihəsində təkcə şübhəli və təqsirləndirilən şəxslərin yox, həmçinin şahidlərin, zərərçəkmiş şəxslərin də təxirəsalınmaz hüquqi yardım almaq imkanları təsbit edilməlidir. Fikrimizi əsaslandırmaq üçün bir neçə misala nəzər salsaq kifayətdir.*

*Hər hansı cinayətdən zərərçəkmiş şəxs polisə, prokurorluğa və yaxud məhkəməyə müraciət etməsi ilə bağlı tərəddüd edir və ona vurulan fiziki, maddi və mənəvi ziyanın ödənilməsi ilə bağlı hansı hüquqları var və bu hüquqları necə həyata keçirməsini bilmir. Bəzən ona qarşı edilmiş dələduzluğu mülki məsələ, ayrı-ayrı situasiyalarda isə mülki mübahisəni dələduzluq kimi başa düşür. Zərərçəkmiş şəxsin bu halda hüquq mühafizə orqanına müraciət etməzdən əvvəl ilkin hüquqi yardıma ehtiyacı yaranır. Aydın məsələdir ki, qanunda ödənişsiz hüquqi yardım yalnız şübhəli və təqsirləndirilən şəxs barəsində nəzərdə tutulub, bəs zərər çəkmiş şəxs.*

*Göstərilən arqumentlər şahidə də aiddir. Belə ki, hər hansı cinayət hadisəsi ilə bağlı təhqiqat və ya ibtidai istintaq aparan cinayət təqibi orqanı şəxsi şahid qismində dindirməyə dəvət edir. Şahidin bu halda ilkin hüquqi yardıma ehtiyacı var, belə ki, şəxs dindirməyə çağırış vərəqəsi ilə çağırılmalıdır, çağırış vərəqəsində şəxsin hansı qisimdə, nə vaxt və hara gələcəyi qeyd olunmalı, eyni zamanda onun gəlməməsi halında məcburi gətirmə ilə bağlı xəbərdarlıq öz əksini tapmalıdır. Bir anlıq düşünün, hansısa əməliyyat müvəkkili mobil telefonla şəxsə zəng edir və onun polis orqanına gəlməli olduğu barədə məlumat verir. Əlbəttə ki, polis orqanına hansı qismdə çağırılmasından asılı olmayaraq mənəvi iztirab keçirən şəxsin ilkin hüquqi yardıma və onu həmin orqanda onu nə gözlədiyi barədə hüquqi məlumatlandırılmaya ehtiyacı var, digər tərəfdən qanunla müəyyən edilmiş qaydada polis orqanına dəvət edilməyən (çağırılmayan) şəxsin ora getməmək hüququ var. Bu hüququ bilmək nəinki şahidi sakitləşdirir, həmçinin onun tərəfindən fikirlərini toplamasını, onun üçün hər hansı mənfi nəticələr doğurmamasına görə həqiqəti söyləmək cəsarəti yaradır.*

***b. Şübhəli və təqsirləndirilən şəxsin hüquqi yardım alması ilə bağlı bəzi zəruri məqamlar.***

*Şəxsin tutulduğu andan müdafiəçinin hüquqi yardımından istifadə etmək hüququ var, bu hüququn təmin edilməsindən əvvəl şəxsin tutulduğu an ifadəsinə aydınlıq gətirilməlidir. Şəxsin tutulmasının fiziki anı və hüquqi anı fərqləndirilir. Fiziki an dedikdə, şəxsin hərəkət azadlığının faktiki məhdudlaşdırıldığı andır və Avropa məhkəməsinin presedentlərinə (Engel Niderlanda qarşı, 1976) görə şəxsin müdafiəçinin yardımından istifadə hüququ məhz bu vaxt təmin edilməlidir. Hüquqi tutulma anı isə şəxsin tutulmasının rəsmiləşdirilməsi, yəni müvafiq hallarda tutulma qərarı və tutulma protokolunun tərtib edilməsidir. CPM təhlil edildikdə aydın olur ki, qanunvericilik tutulmanın hüquqi anını tanıyır, belə ki, CPM-in 7.0.39-cu maddəsində tutulmanın anlayışı şəxsin azadlığının qısa müddətə*

*məhdudlaşdırılmaqla onun müvəqqəti saxlama təcridxanasında saxlanılması kimi müəyyən edilmişdir.*

*Hesab edirik ki, şübhəli və təqsirləndirilən şəxsin fiziki tutulma anından onun hüquqi yardım almaq hüququnun təmin edilməsi qanun layihəsində nəzərdə tutulması və belə hallarda qaynar xətt vasitəsilə ictimai vəkilin, parayuristin təmini insan hüquq və azadlıqlarının təmini baxımından irəli atılmış addım olardı. Çünki, hüquqi qüvvəsinə görə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq normalara dövlətdaxili normativ-hüquqi aktlardan üstündür.*

Mülki Prosessual Məcəllənin 43-cü fəsli məhkəmə qərarlarından şikayət vermək hüququnu və onun kassasiya qaydasında baxılmasını nəzərdə tutur.

Məhkəmə aktlarından şikayətin Mülki Prosessual Məcəllədə nəzərdə tutulan qaydada verilməsi və onun əsasında işə yuxarı məhkəmə instansiyasında baxılması məhkəmə müdafiəsi hüququnun ayrılmaz elementi kimi Konstitusiyanın 60-cı maddəsinin mənasından irəli gəlir. Mülki Prosessual Məcəllənin 416-cı maddəsinə görə, kassasiya instansiyası məhkəməsi yalnız maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır. Həmin Məcəllənin 424 və 433-cü maddələrinə əsasən, Ali Məhkəmənin Plenumu müstəsna olaraq hüquqi məsələlər və qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə işlərə baxır. Bununla əlaqədar işdə iştirak edən şəxslərin hüquqlarının hərtərəfli və keyfiyyətli müdafiəsinin təmin edilməsi məqsədilə Mülki Prosessual Məcəllənin 67-ci maddəsində nəzərdə tutulmuşdur ki, həmin instansiyada işlərə baxıldıqda göstərilən şəxslər yalnız vəkillə birgə iştirak edirlər. Mülki Prosessual Məcəllənin bu müddəaları Konstitusiyanın 61-ci maddəsinin tələbləri ilə uzlaşır. Həmin maddənin I hissəsinə görə, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.

Konstitusiyanın bu normalarına əsaslanan "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun 20-ci maddəsində nəzərdə tutulmuşdur ki, məhkəmədə hüquqi yardıma ehtiyacı olan aztəminatlı şəxslərə hər hansı bir məhdudiyyət qoyulmadan vəkil tərəfindən göstərilən hüquqi yardım dövlət hesabına həyata keçirilir. Vəkillik özlüyündə müstəqil hüquqi institut olaraq fiziki və hüquqi şəxslərin hüquq, azadlıq və qanunla qorunan maraqlarını qoruyur və onlara yüksək keyfiyyətli hüquqi yardım göstərir. Belə ki, vəkillik fəaliyyəti hüquqi yardım üçün müraciət etmiş şəxslərin hüquqlarının və mənafelərinin müdafiəsinin və ya təmsil edilməsinin vəkilə həvalə edilməsi əsasında və onların tapşırıqlarına müvafiq olaraq həyata keçirilir. Vəkilin ədalət mühakiməsində iştirakı yalnız hüquqi yardım üçün müraciət edən şəxslə fərdi qaydada fəaliyyət

göstərən vəkil və ya vəkilin daxil olduğu qurum arasında bağlanmış müqavilə əsasında həyata keçirilir.

Dövlət hesabına hüquqi yardımın göstərilməsi bu günlərdə vəkillər arasında müzakirə edilən aktual məsələlərdəndir. Prosessual qanunvericiliyə əsasən, cinayət prosesində, həmçinin mülki prosesdə işlərə kassasiya instansiyasında baxılarkən vəkilin iştirakı məcburidir. Bu halda dövlət vəkil tutmaq üçün imkanı olmayan şəxsləri məcburi olaraq vəkillə təmin edir. Bununla belə, dövlət tərəfindən vəkilə ödənilən məbləğin çox aşağı olması, bu məbləğin alınmasının mürəkkəbliyi vəkilin həmin işi aparmaqda marağının olmaması ilə müşayiət edilir və məsələnin həlli yalnız vəkilin təşəbbüskarlığının ümidinə qalınmaqla kifayətlənilir. Belə ki, 2009-cu ilin sentyabrınadək vəkillərə göstərdikləri hüquqi yadımın hər saatına 90 qəpik ödənilirdisə, Prezidentin 2005-ci il "Azərbaycan Respublikası Vəkillər Kollegiyasının maddi-texniki təminatının yaxşılaşdırılması tədbirləri barədə" Fərmanın dövlət hesabına hüquqi yardımın göstərilməsi üzrə ödənişin artırılması məsələsinin həlli barədə tapşırığının nəticəsi olaraq Nazirlər Kabinetinin qərarı ilə bu məbləğ 2 manata qədər artırılmışdır. Məbləğin, əlbəttə ki, vəkilləri tam qane etməməsinə baxmayaraq, ümid var ki, bu məbləğin artım tendensiyası davam edərək vəkillərin ehtiyacları ilə uzlaşdırılacaqdır.

Mülki prosessual qanunvericilikdə vəkilin işdə pulsuz iştirak etməsi istisna olunmur. Belə ki, Mülki Prosessual Məcəllənin 121.2-ci maddəsinə əsasən, müəyyən edilmiş qaydada xeyrinə qətnamə çıxarılan tərəfə hüquq məsləhətxanası hüquqi xidməti pulsuz göstərmişsə, həmin məbləğ digər tərəfdən alınıb hüquq məsləhətxanasına verilir.

Bununla belə, mülki məhkəmə icraatında dövlət hesabına ödənilən hüquqi yardımın məbləği və ödənilməsi qaydası müəyyən edilməmişdir. Bu məsələnin həlli isə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətinə verilmişdir.

Ədalətli məhkəmə baxışı hüququ daxilində olan məhkəmə müdafiəsi və hüquqi yardım almaq hüquqları beynəlxalq ədalət mühakiməsi orqanları tərəfindən birmənalı və aydın şəkildə qəbul olunur.

Göstərildiyi kimi, ədalətli məhkəmə baxışı hüququ Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsində təsbit olunmuşdur. Avropa İnsan Hüquqları Məhkəməsinin Eyrinin İrlandiyaya qarşı iddiasına dair iş üzrə qəbul olunmuş 1979-cu il 9 oktyabr tarixli qərarında qeyd olunur ki, Avropa İnsan Huquqları Konvensiyasının 6-cı maddəsinin birinci bəndi bir sıra iştirakçı dövlətlərin daxili qanunvericiliyinə əsasən müəyyən kateqoriya işlər üzrə və ya prosesin mürəkkəbliyinə görə hüquqi nümayəndəlik məcburi sayıldığından ədalət mühakiməsinə buraxılmanı real təmin

etmək üçün zəruri olduqda bəzi hallarda dövlətləri vəkil köməyini təmin etməyə məcbur edə bilər. Qeyd olunan mövqe Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 11.06.2002-ci il tarixli "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 67 və 423-cü maddələrinə dair" Qərarında qeyd olunmuşdur: "Qanunla nəzərdə tutulmuş hallarda ödənişsiz hüquqi yardım almaq hüququ hər şeydən əvvəl ədalət mühakiməsinin maraqları ilə əlaqələndirilməlidir ki, bu da əsasən tərəflərin imkanlarının bərabərliyi prinsipinin təmin edilməsinə aiddir. Ədalət mühakiməsinin maraqları tələb etdikdə, aztəminatlı şəxslərin ödənişsiz hüquqi yardım almaq hüququ öz mövqeyini müdafiə etmək hüququna alternativ olmayan müstəqil hüquqdur. Hər hansı bir iş üzrə müəyyən peşə bilikləri tələb edən hüquqi problemlər qaldırıldıqda, dövlət nəinki keyfiyyətli hüquqi yardım almaq Konstitusiya hüququnu, həmçinin belə hüququ real şəraitdə aztəminatlı şəxslərə də təmin etməlidir."

Habelə "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.12-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" Konstitusiya Məhkəməsi Plenumunun 20 may 2011-ci il tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə əsasən müdafiə hüququ şəxsin qanuni maraqlarının təminatı ilə yanaşı, həm də ədalət mühakiməsi maraqlarının təminatıdır, sosial dəyərdir. Hər kəsin hüquqi yardım almaq hüququnun təmin edilməsi ilə bağlı yaranan hüquq münasibətləri özündə ictimai maraqları əks etdirdiyi üçün dövlətin bu sahədə üzərinə düşən konstitusiya öhdəliklərinin yerinə yetirilməsinə dəlalət edir. Bu isə dövlət tərəfindən zərurət olduqda şəxsin hüquqlarının müdafiəsi üçün pozitiv tədbirlərin görülməsini tələb edir. Bu mənada təqsirləndirilən şəxsin yüksək hüquqi yardım almaq hüququnun təmin edilməsinin zəruriliyi işin hallarının tam, obyektiv və hərtərəfli araşdırılmasına xidmət edir və nəticədə ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinə yönəlmişdir."

Qanunla nəzərdə tutulmuş hallarda ödənişsiz hüquqi yardım almaq hüququ hər şeydən əvvəl ədalət mühakiməsinin maraqları ilə əlaqələndirilməlidir ki, bu da əsasən tərəflərin imkanlarının bərabərliyi prinsipinin təmin edilməsinə aiddir.

Ədalət mühakiməsinin maraqları tələb etdikdə, aztəminatlı şəxslərin ödənişsiz hüquqi yardım almaq hüququ öz mövqeyini müdafiə etmək hüququna alternativ olmayan müstəqil hüquqdur. Hər hansı bir iş üzrə müəyyən peşə bilikləri tələb edən hüquqi problemlər qaldırıldıqda, dövlət nəinki keyfiyyətli hüquqi yardım almaq Konstitusiya hüququnu, həmçinin belə hüququ real şəraitdə aztəminatlı şəxslərə də təmin etməlidir.

Həmçinin "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununun 10-cu maddəsində heç kəsin məhkəmə müdafiəsi hüquqununda məhrum edilə bilməzliyi qeyd olunmuşdur.

Ödənişsiz hüquqi yardımın göstərilməsi il bağlı müddəalar son dövrlər qəbul olunmuş sosial yönümlü qanunvericilik atlarından da yan keçməmişdir. Belə ki, 30.12.2011-ci il tarixli "Sosial xidmət haqqında" Qanunda sosial xidmətin bir növü kimi sosial-hüquqi xidmətlərdən söhbət açılır ki, burada sosial xidmətlərə ehtiyacı olan şəxslərə dövlət hesabına hüquqi yardımın göstərilməsi, onların hüquqlarının qorunması daxildir.

Bu qəbildən olan digər sənəd 22.06.2010-cu il tarixli "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanundur. Qanunun 14-cü maddəsinə əsasən, məişət zorakılığının qarşısının alınması sahəsində hüquqi tədbirlər qismində zərər çəkmiş şəxslərin dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edilməsi nəzərdə tutulmuşdur.

Dövlət hesabına hüquqi yardımın göstərilməsi işi dövlət səviyyəsində insan hüquqlarının müdafiəsinin səmərəli mexanizmlərlə təmin edilməsini nəzərdə tutur ki, bu da Azərbaycan Respublikasının Prezidentinin 2 sərəncamında aydın şəkildə qeyd olunmuşdur:

**a)** "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında" 28.12.2006-cı il tarixli Sərəncam: 2007-2010-cu illərdə Əhalinin hüquqi yardım almaq hüququndan daha səmərəli istifadə etməsinə kömək etmək məqsədilə və həmçinin hüquq fakültəsi tələbələrinin peşə vərdişlərinə yiyələnməsi məqsədilə ali təhsil müəssisələrinin hüquq fakültələri nəzdində “Hüquq Klinikalarının” yaradılması və fəaliyyətlərinə kömək göstərilməsi Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkilinə tapşırılmışdır.

**b)** “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında 15.09.2008-ci il tarixli Sərəncam: Yoxsul əhalinin öz hüquqları barədə maarifləndirilməsi və onlara ödənişsiz hüquqi yardım xidmətinin göstərilməsi üçün regionlarda hüquqi məsləhət xidmətləri mərkəzlərinin şəbəkəsi genişləndiriləcək, eləcə də əhalinin hüquqi təsisatlara müraciət etmək imkanlarının genişləndirilməsi məqsədilə digər zəruri tədbirlər görüləcəkdir. Sərəncama əsasən, 2008-2010-cu illərdə Ədliyyə Nazirliyinə 20 regional hüquqi məsləhət xidmətləri mərkəzlərinin yaradılması ilə yoxsul əhalinin vətəndaş hüquqları barədə məlumatlandırılması və onların pulsuz hüquqi yardım xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi tapşırılmışdır. Lakin keçən dövrün təcrübəsi onu göstərir ki, regionlarda vəkillərin sayının məhdudluğu bu sistemin səmərəli fəaliyyətində mühüm əngəl rolunu oynamışdır.

Dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi ilə bağlı Azərbaycan tərəfindən qəbul olunmuş beynəlxalq alətlər gələcəkdə "Ödənişsiz hüquqi yardım haqqında" Qanun qəbul olunması baxımından mühüm əsaslar kimi çıxış edə bilərlər. Ölkəmiz 11.05.2010-cu il tarixli Avropa Şurasının 2005-ci il "İnsan alverinə qarşı

mübarizə haqqında" Konvensiyasının təsdiq edilməsi haqqında Qanunla Azərbaycanın öz daxili qanunvericiliyində insan alveri qurbanının hüquqi yardım və pulsuz hüquqi yardım almaq hüququnu təmin etməli olduğu göstərilmişdir.

Həmçinin aztəminatlı əhali qrupuna ödənişsiz hüquqi yardımın göstərilməsi məsələsi daha təfərrüatlı olaraq Avropa Şurası Nazirlər Komitəsinin 08.01.1993-cü il tarixli R(93)1 saylı Əhalinin aztəminatlı təbəqəsinin hüquqa və məhkəmələrə səmərəli çıxışına dair Tövsiyəsində aztəminatlı şəxslərin hüquqlarının müdafiəsi üçün hüquqi məsləhət xidmətlərinin fəaliyyətinin inkişaf etdirilməsi üzv dövlətlər üçün tövsiyə olunmuşdur.

Məlum olduğu kimi Azərbaycan Respublikası 1996-cı ildən Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı 10 dekabr 1984-cü il tarixli Konvensiyasına qoşulmuşdur. Bu Konvensiya çərçivəsində müxtəlif alt komitələr fəaliyyət göstərir ki, onlar üzv ölkələrdə işgəncə faktlarına dair illik hesabatlar hazırlayırlar. 2012-ci ilin mart ayında təqdim olunmuş 2011-ci ilə dair hesabatda şəxsin tutulduğu andan vəkillə təmin olunması məsələsinə toxunulmuşdur. Bu, şəxsin polis məntəqəsində işgəncəyə məruz qalmasının qarşısının alması baxımından əhəmiyyətlidir. Hesabatda insanların səmərəli müdafiə hüququ ilə təmin edilməsi üçün qanunvericilik mexanizminin mövcud olması zəruri hesab olunur. Bunun üçün ictimai və ya ştatlı hüquqi yardım göstərən hüquqşünasların fəaliyyətinin təşkil olunması vurğuanır. Həmçinin belə xidmət göstərəcək qurumların maliyyə muxtariyyətinin, müstəqilliyinin olması işgəncə ilə üzləşən şəxslərin hüquqlarının operativ müdafiəsi baxımında zəruri olduğu qeyd olunmuşdur.

Ümumiyyətlə, Konstitusiyada nəzərdə tutulan hüquqi yardım fikri özünü digər normativ hüquqi aktlarda əsasən aşağıdakı kimi büruzə verir:

**1) Cinayət Prosessual Məcəllə**

***Maddə 153.2.7.*** tutulmuş şəxsin maddi vəziyyəti öz hesabına vəkil tutmağa imkan vermədikdə, ona dövlət hesabına müvəqqəti saxlama yeri üzrə ərazidə yerləşən vəkil qurumlarına daxil olan növbətçi vəkillə görüşmək imkanı yaratmaq;

***Maddə 193. Müdafiəçinin hüquqi yardımının ödənilməsi***

193.1. Müdafiəçi tərəfindən şübhəli və ya təqsirləndirilən şəxsə göstərilən hüquqi yardım müdafiəçi ilə müdafiə olunan şəxs arasında razılaşdırılmış şərtlər əsasında müdafiə olunanın hesabına ödənilir.

193.2. Şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçinin xidmətlərini ödəməyə kifayət qədər vəsaiti yoxdursa və müdafiəçinin cinayət prosesində iştirakı bu Məcəllənin 92.3-cü maddəsində nəzərdə tutulmuş hallarda təmin olunmalıdırsa,

cinayət prosesini həyata keçirən orqan həmin şəxsə hüquqi yardımın göstərilməsini Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına təmin etməlidir.

193.3. Məhkəmə şübhəli və ya təqsirləndirilən şəxsin orta aylıq gəlirini, maddi, əmlak və ailə vəziyyətini, habelə digər halları nəzərə alaraq həmin şəxsin müdafiəçi tərəfindən göstərilən hüquqi yardımı ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi barədə əsaslandırılmış qərar qəbul edir.

193.4. Şübhəli və ya təqsirləndirilən şəxs müdafiəçidən imtina etdikdə və bu imtina cinayət prosesini həyata keçirən orqan tərəfindən qəbul edilmədikdə, cinayət prosesində iştirak edən müdafiəçinin hüquqi yardımı göstərilən şəxslər üçün məhkəmənin qərarı əsasında pulsuz, Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilir.

193.5. Bu Məcəllənin 193.2—193.4-cü maddələrində nəzərdə tutulmuş hallarda hüquqi yardım müdafiəçinin təqdim etdiyi hesabat əsasında hər iş saatı üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi miqdarda vəkillərin müvafiq ərazi qurumu vasitəsilə ödənilir.

***Maddə 194.1.*** Məhkəmə baxışı zamanı dövlət ittihamçısı ictimai-xüsusi ittiham qaydasında həyata keçirilən cinayət təqibindən imtina etdikdə, xüsusi ittihamçıya cinayət təqibini davam etdirmək üçün nümayəndəsi tərəfindən göstərilən hüquqi yardımın ödənilməsi qaydası məhkəmənin qərarı ilə müəyyən olunur. Həmin cinayət təqibi üzrə ittiham hökmü çıxarıldıqda xüsusi ittihamçının nümayəndəsi tərəfindən göstərilən hüquqi yardımı ödəmək üçün xüsusi ittihamçının kifayət qədər vəsaiti olmadıqda, məhkəmə ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi barədə əsaslandırılmış qərar qəbul edir.

194.2. Vəkilin xüsusi ittihamçıya göstərilmiş hüquqi yardımı bu Məcəllənin 193.5-ci maddəsində nəzərdə tutulmuş qaydada ödənilir.

**2) Mülki Prosessual Məcəllə**

***Maddə 14.4.*** İşdə iştirak edən şəxslər, qanunla onların nümayəndəliyi zəruri olan hallar istisna edilməklə, özləri öz hüquq və mənafelərini müdafiə edə bilərlər. Onlar maraqlarının təmsil olunması və ya prosessual hüquqlarının həyata keçirilməsi üçün peşəkar hüquqi yardım almaq məqsədi ilə özlərinə sərbəst vəkil seçə bilər.

***Maddə 14.5.*** Bu Məcəllə ilə vəkilin prosesdə məcburi iştirakı tələb olunduğu hallarda işdə iştirak edən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, onlar maraqlarının təmsil olunması və prosessual hüquqlarının

həyata keçirilməsi üçün pulsuz (dövlət hesabına) peşəkar hüquqi yardım almaq hüququna malikdirlər.

**3) İnzibati Xətalar Məcəlləsi**

***Maddə 376. Vəkilin iştirakının məcburiliyi***

376.1. İnzibati qaydada tutulan yetkinlik yaşına çatmayanların, icraatın aparıldığı dili bilməyənlərin, lal, kar, kor, fiziki və ya psixi qüsurları üzündən özlərinin müdafiə hüququnu həyata keçirə bilməyən digər şəxslərin işlərində vəkilin iştirakı məcburidir.

Göstərilən hallarda barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin müdafiəçidən imtinası qəbul olunmur.

376.2. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs tərəfindən seçilmiş vəkilin gəlməsi qeyri-mümkün olduqda hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həmin şəxsi vəkil ilə təmin edir.

376.3. Maddi vəziyyətinə görə öz hesabına vəkil tutmaq imkanı olmadıqda, inzibati qaydada tutulmuş şəxsə hüquqi yardım dövlətin vəsaiti hesabına göstərilir. Belə halda vəkil öz vəzifələrini yerinə yetirməkdən imtina edə bilməz.

***Maddə 401.1.7.*** tutulmuş şəxsin öz vəkili olmadıqda ona müvəqqəti saxlama yeri üzrə ərazidə hüquq məsləhətxanasında və ya Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada hüquqi yardımın göstərilməsi fəaliyyəti ilə məşğul olan digər təşkilatlarda fəaliyyət göstərən vəkillərin siyahısını təqdim etmək, seçilmiş vəkilə əlaqə saxlamaq və onunla görüşmək imkanı yaratmaq.

**4) İnzibati Prosessual Məcəllə**

***Maddə 108.2.*** Dövlət rüsumları, vəkilin və ya nümayəndənin haqqı və digər xərclər qanunvericiliyə uyğun olaraq ödənilməlidir. Qanunvericilikdə həmin ödəmələrin məbləğinin müəyyən edilmədiyi hallarda, məhkəmə özü ağlabatan məbləğ təyin edir.

## 2.2. Ödənişsiz hüquqi yardımın göstərilməsi sahəsində mövcud olan problemlər

Vətəndaşların yüksək ixtisaslı və keyfiyyətli hüquqi yardım alması əhəmiyyətli məsələlərdəndir.

Azərbaycan Respublikasının Konstitusiyası ixtisaslaşdırılmış hüquqi yardım almaq hüququnu təsbit edir və həmçinin, onun ödənişsiz olmasına təminat verir. Təcrübədə dövlət tərəfindən ödənişsiz hüquqi yardım əsasən müdafiəçinin məcburi iştirakını nəzərdə tutan hallarda göstərilir. Dövlətin maliyyə imkanlarını nəzərə almaqla, xüsusilə əhalinin sosial cəhətdən aztəminatlı təbəqələrinə münasibətdə bu meyarların genişləndirilməsinin vacibliyi şübhə doğurmur. Məlum olduğu kimi, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş və əhalisinin 1/8 hissəsi qaçqın və məcburi köçkün vəziyyətinə düşərək ev-eşiyindən, yaşayış vasitələrindən tamamilə məhrum edilmişdir. Əhalisinin 1 milyonunu qaçqın və məcburi köçkünlər təşkil edən Azərbaycan üçün bu məsələ xüsusilə aktualdır.

Aztəminatlı ailələr üçün ödənişsiz və keyfiyyətli hüquqi yardımın göstərilməsinə əngəl törədən hallar məhkəməyəqədər ödənişsiz hüquqi yardım göstərmə mexanizminin olmaması, həmçinin mülki mühakimə icraatı prosesində yardımın olmaması və digər amillərdir.

Qeyd olunan və başqa problemlərin həll olunması ilə bağlı sözügedən qrupların ədalətli məhkəmə hüququnun təmin olunması üçün razılaşdırılmış kompleks tədbirlər, o cümlədən uşaqların hüquqlarının təmin olunması, yetkinlik yaşına çatmayanlar arasında hüquq pozuntularının profilaktikası, onların məlumatlandırılması işinin yaxşılaşdırılması, hüquqi təhsili və tərbiyəsi, məhkəməyə müstəqil şəkildə müraciət edilməsi vasitələrinin təkmilləşdirilməsi üzrə milli proqramların işlənib hazırlanması və həyata keçirilməsi tələb olunur.

**Ümumiyyətlə, Azərbaycanda hüquqi yardım alınması sahəsində mövcud olan əsas problemlər aşağıdakılardan ibarətdir:**

**a.** Konkret olaraq pulsuz hüquqi yardım almaqdan söhbət gedirsə, Azərbaycan vətəndaşlarının pulsuz vəkil, hüquqi nümayəndə tutmaq imkanı məhdudlaşdırılıb. Çünki, mülki işlərdə pulsuz hüquqi yardım alınmasının mexanizmi mövcud deyildir. Həmçinin qanunvericilikdə *"maddi vəziyyəti öz hesabına vəkil tutmağa imkan vermədikdə", "orta aylıq gəlirini, maddi, əmlak və ailə vəziyyətini, habelə digər halları imkan vermədikdə"* və s. anlyaşlar dedikdə nəyin nəzərdə tutulduğu bilinmir;

**b.** Ödənişsiz hüquqi yardım göstərməli olan vəkili birinci instansiya məhkəməsi təyin etməlidir. Lakin elə birinci instansiya məhkəməsinə müraciət etmək üçün

vətəndaşa vəkil lazımdır ki, ona müvafiq şikayət ərizəsinin yazmasına, habelə istiqamətlərdə köməklik göstərsin. Dolayısilə mövcud qanunvericilikdə vəkilin və ya nümayəndənin xidmət haqqlarının dövlət hesabına ödənilməsi yalnız şəxsin hansısa proses iştirakçısı olduğu halları əhatə edir;

**c.** Ümumiyyətlə, regionlarda vəkillərin sayının katastrofik dərəcədə az olması hüquqi yardımın alınmasının bəlkə də, əsas maneələrindən biridir. Adambaşına düşən vəkil sayına görə Azərbaycan inkişaf etmiş Avropa ölkələrindən, hətta Cənubi Qafqaz respublikalarından geri qalır və bu, keyfiyyətli hüquq xidmətləri göstərilməsi və ədalət mühakiməsinin həyata keçirilməsində əsas əngəllərdən biridir. Vətəndaşların konstitutsion hüquqlarının effektiv həyata keçirilməsi üzrə Avropa Şurasının Azərbaycanda vəkillərin sayının artırılması, həmçinin hüquqi yardımın göstərilməsi ilə bağlı tövsiyələrinə əsasən, 2005-ci ildən bu günə kimi vəkillərin sayı 370-dən 824-ə, yəni 2,3 dəfəyədək artmışdır. Doğrudur, bir sıra nüfuzlu beynəlxalq təşkilatların hesabatlarına əsasən, Azərbaycan digər ölkələr ilə müqayisədə adambaşına düşən vəkil sayına görə hələ də geri qalmasına baxmayaraq, bu çatışmamazlığın aradan qaldırılması məqsədilə vəkilliyə namizədlərin seçimi mütəmadi olaraq davam etdirilir. Dövlətin özü də vəkillərinin sayının artırılmasında bilavasitə maraqlıdır. “Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına yeni məhkəmələrin yaradılması nəzərə alınaraq, vəkillərin sayının artırılması məsələsinə baxması və regionlarda əhaliyə göstərilən hüquqi yardımın səmərəliliyinin artırılması üçün tədbirlər görməsi tövsiyə edilmişdir.

**c.** Qanunvericiliyə əsasən cinayət işlərində müttəhim dövlət hesabına vəkillə təmin olunmalıdır. Lakin əksər hallarda müttəhim vəkilin üzünü belə görmək imkanı tapmır. Vəkil yalnız müəyyən prosessual qaydaların yerinə yetirilməsi - sənədlərin imzalanması üçün lazım olur. Çünki hal-hazırda vəkilin cinyət təqibi ərzində iştirakına görə dövlət tərəfindən verilən ödənişin məbləği az olduğundan, bu ödənişin alınmasında gecikmələrin olması vəkillərin belə işlərə maraq göstərməməsinə səbəb olmuşdur;

**d.** Mülki Prosessual Məcəllənin 67-ci və 407-ci maddələrinə əsasən ittiham tərəfinin kassasiya intansiyasında vəkillə birgə iştirak etməli olduğu qeyd olunmuşdur, lakin nəzərə almaq lazımdır ki, hüquqi yardım almaq - hüquqdur, vəzifə deyildir;

**e.** Məcəllənin 67 və 407-ci maddələri məhkəmələrdə nümayəndə kimi iştirak edən hüquqşünasların fəaliyyət sferasını kifayət qədər məhdudlaşdırır;

**f.** Vəkillərin aldıqları qonorar olduqca azdır. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" 31 saylı qərarına əsasən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 193.2 və 193.4-cü maddələrində nəzərdə tutulmuş hallarda hüquqi yardımın göstərilməsinə görə müdafiəçiyə ödənilən haqq hər iş saatı üçün 2 manat məbləğində müəyyən edilmişdir;

**g.** ümumiyyətlə, əhalinin hüquqi maarifləndirilməsi məsələsinin qanunvericilikdə öz həllini tapmaması.

## Ümumi statistika (2012-ci il üzrə)

| Vəkillərin sayının artım dinamikası | |
|---|---|
| İl | Say |
| 2005 | 151 |
| 2006 | 24 |
| 2007 | 235 |
| 2008 | 23 |
| 2009 | 67 |
| 2010 | 15 |
| 2011 | 9 |
| 2012 | 122 |

| Vəkil qurumlarının sayı | |
|---|---|
| Paytaxtda | Regionlarda |
| 25 | 16 |

| Vəkillərin ümumi sayı - 834 | |
|---|---|
| Paytaxtda - 600 | Regionlarda – 234 |
| Onlardan fərdi – 60 | Onlardan fərdi - 106 |

**Vəkillərin sayının artım dinamikası**



# 3. "ÖDƏNİŞSİZ HÜQUQİ YARDIM HAQQINDA" QANUNUN QANUNVERİCİLİK SİSTEMİNƏ İMPLEMENTASİYASI

## 3.1. Qanunun hüquq sahələri ilə əlaqəsi

"Ödənişsiz hüquqi yardım haqqında" qanun layihəsini digər sənədlərdən fərqləndirən əsas cəhət onun bir çox hüquq sahələri ilə üzvü sürətdə bağlı olmasıdır. Burada hüquq sahələri dedikdə insan hüquqlarına bilavasitə təsir göstərə bilmə xüsusiyyətinə sahib olan sahələr nəzərdə tutulur. Qeyd olunan sənəd həm prosessual, həm də maddi normaları özündə ehtiva edir.

Prosessual hüquq normaları vasitəsi ilə prosessual orqanların ödənişsiz hüquqi yardımın göstərilməsi ilə bağlı hüquq və vəzifələri əks olunacaqdır. Dolayısilə yeni qanunun tətbiqi prosessual orqanlar üzərinə bir sıra öhdəliklər qoyacaq ki, bu da həmin orqanların gələcəkdə iş yükləri və fəaliyyət istiqamətlərinə mühüm təsirlər göstərəcəkdir.

Digər tərəfdən qeyd olunan qanun insan və vətəndaşların hüquq və vəzifələrinə təsir etməklə yeni müxtəlif hüquq sahələrində maddi normaların yaranmasına səbəb olacaqdır.

Bu dəyişikliklər xüsusilə mülki prosessual, cinayət prosessual, sosial təminat, inzibati, maliyyə hüququ sahələrində hiss olunacaqdır.

Mülki prosessual hüquqda insanların ödənişsiz hüquqi yardımdan mülki mübahisələrin yaranması ilə bağlı istifadə edə bilmə imkanları müəyyənləşdiriləcəkdir. Bu zaman mülki mübahisələrin xarakteri, predmeti, habelə belə mübahisələrin yaranması zamanı tərəflərin qarşılaşacaqları mülki məhrumiyyətlərin nəticələri qanunun gələcəkdə tətbiqi perspektivinə təsir göstərəcəkdir. Zənnimizcə, Mülki Məcəllənin ümumi hissəsində mülki hüquqların məhkəmə müdafiəsi ilə əlaqədar aztəminatlı şəxslərə dövlət tərəfindən hüquqi yardımın göstərilməsi məsələsi deklarativ formada qeyd oluna bilər.

Qeyd olunan məqamlar cinayət prosessual hüquqla da uzlaşmaqdadır. Bu zaman cinayət təqibi orqanlarının hüquqi yardıma ehtiyacı olan şəxslərə təxirəsalınmaz yardımın göstərilməsi üzrə vəzifələri müəyyənləşdiriləcək, peşəkar hüquqi yardım göstrərən qurumlarla əməkdaşlığının normativ əsasları təsbit olunacaqdır.

Azərbaycanda inzibati prosessual qanunvericiliyin qəbul olunmasından az zaman keçməsinə baxmayaraq, məhkəmələr tərəfindən bu sahədə mühüm təcrübə əldə olunmuşdur. Xüsusilə, bu, vətəndaşlarla inzibati orqanlar arasında yaranan mübahisələrlə əlaqəlidir. Statistikaya görə belə mübahisələr zamanı əksər hallarda vətəndaşların hüquqlarının bərpası dinamikası daha üstün olmasına baxmayaraq, səmərəli hüquqi müdafiə vasitələrinə əlləri çatmayan aztəminatlı şəxslərin və ailələrin

üzləşdikləri hüquqi məhrumiyyətlər ağır nəticələrə səbəb olur ki, bu da cəmiyyətdə sosial narazılıqların yaranmasına gətirib çıxarır. Məhz hüquqi yardımın göstərilməsinin ən zəruri sahəsi inzibati sahədir. İnzibati orqanlarda süründürməçilik hallarından daha çox şikayətçi olanlar aztəminatlı şəxslərdirlər ki, bu qrupa da şəhid ailələri, məcburi köçkünlər və qaçqınlar, müharibə əlilləri, pensiyaçlar daxildirlər. Əksər hallarda həmin şəxslərin öz hüquq və vəzifələri barədə məlumatlı olmamaları dövlət orqanları ilə aralarında anlaşılmazlıqların yaranmasına səbəb olur. Bu mənada aztəminatlı şəxslərin hüquqi yardıma ehtiyacı olduğu sahə kimi inzibati sahənin adını çəkə bilərik.

Analoji təsir sosial-təminat, maliyyə və digər hüquq sahələrinə də təsir göstərəcəkdir.

## 3.2. "Ödənişsiz hüquqi yardım" ideyasının Konstitusiyada yeri

Keyfiyyətli hüquqi yardımdan yararlanmaq hüququnu ayrıca hüquq kimi təsəvvür etmək düzgün olmazdı. Bu hüquq məhkəmələrə çatımlılıq hüququndan törəyən hüquqdur. Konstitusiyamızın 61-ci maddəsinə əsasən, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır və qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir. Habelə hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

Dolayısilə Konstitusiyamız sosial cəhətdən həssas olan insan qruplarına göstəriləcək ödənişsiz hüquq yardım sisteminin qanunvericilik reqlamentasiyasının müəyyənləşdirilməsinin prinsipial istiqamətlərini dəqiq əks etdirmişdir. Əslində ölkəmizin unitar ərazi quruluşuna malik olması hüquqi yardım sistemin ölkə üzrə tətbiqində o qədər də böyük çətinliklərlə üzləşilməyəcəyinə zəmin yaradır. Həmçinin əhaliyə  belə yardımın göstərilməsi insan və vətəndaşların konstitusion hüquqlarının həyata keçirilməsi üzrə ümumdövlət təminatının mühüm bir hissəsini təşkil edir. Bu baxımdan dövlət tərəfindən təmin edilən və maliyyələşdirilən hüquqi yardım xidmətinin əsaları konstitusiya qanunu səviyyəsində təsbit oluna bilər.

Beləliklə, ödənişsiz hüquqi yardım alınması hüququnu tənzimləyən bu qanun layihəsi bu sisteminin inkişafı və onun formalaşdırılmasının ümumi prinsipləri insanların konstitusion hüquqları ilə bağlı olduğundan konstitusion-hüquqi mahiyyət kəsb edir. Məhz hər bir konstitusiya qanunun əsasında qeyd olunan məqamlar durur. Bu qanun layihəsi öz növbəsində keyfiyyətli hüquqi yardıma çıxış, insan hüquq və azadlıqarının həyata keçirirlməsini, habelə ədalət mühakimsinə çıxış imkanlarını tənzimləyir. Məlum olduğu kimi Azərbaycan Respublikasının hüquqi yardımla bağlı mövcud qanunvericilik təcrübəsi hələ ki, kifayət qədər inkişaf etməmişdir və hal-hazırda inkişaf mərhələsindədir.

## 3.3. "Ödənişsiz hüquqi yardım" ideyasının digər normativ hüquqi aktlardakı yeri

Qeyd olunan qanun layihəsi hüquqi yardımın göstərilməsi sahəsində özək sənəd olacaq və bu istiqamətdə tədricən digər qanunvericilik aktlarında müvafiq dəyişiklik və əlavələrin edilməsi nəzərdə tutulmuşdur.

Bu qanun vasitəsilə ödənişsiz hüquqi yardımın göstərilməsi hallarının dairəsi genişləndiriləcək, bu yardımdan ayararlanacaq şəxslərin kateqoriyası dəqiqləşdiriləcəkdir. Bununla bağlı əsas qanun layihəsindən başqa dəyişikliyə məruz qalacaq digər aidiyyəti qanunlar paketinin müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur.

Lakin hüquqi yardım haqqında qanun layihəsi hazırlanarkən onun tənzimetmə predmeti ilə vəkillik haqqında qanunvericiliyin tənzimetmə predmeti arasındakı səddi nəzərə almaq lazımdır. Qanunun qəbulu nəticəsində peşəkar hüquqi yardım institutunun vəkillik institutundan ayrılması zamanı hüquqi yardım göstərəcək digər hüquqşünasların fəaliyyətlərinin (məsləhətlərin verilməsi, sənədlərin tərtibi, məhkəmədə və digər qurumlarda təmsiletmə) nə dərəcədə qanuni olması məsələsi həll olunmalıdır. Əgər yeni qanunun qəbulu vəkillərin fəaliyyətinə təsir edəcəksə, təbii ki, bu zaman vəkillik haqqında qanunvericilikdə müvafiq struktur dəyişikliklər edilməlidir.

Nəzərə alsaq ki, qanun layihəsinə əsasən hüquqi yardım cinayət işlərindən başqa digər sahələr üzrə də göstəriləcəkdir, konstitusion, inzibati və mülki mühakimə icraatı zamanı hüquqi yardım xidmətindən istifadə edilməsi müvafiq qanunvericiliklərdə fiksasiya olunmalıdır.

Beləliklə, hüquqi yardımın göstərilməsi ilə əlaqədar bir sıra qanunvericilik aktlarına dəyişiklik edilməsi labüddür. Dəyişikliyə məruz qalacaq qanunvericilik aktlarının siyahısı aşağıdakı kimidir:

**a)** "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanun: qanun layihəsinə əsasən hüquqi yardımın göstərilməsi ilə bağlı mərkəzi kollegial idarəetmə orqanı Milli Şuradır və bu qurumda əsasən Vəkillər Kollegiyasının üzvlərinin təmsil olunması nəzərdə tutulmuşdur. Milli Şurada Kollegiyası üzvlərinin təmsil olunması, hüquqi yardım göstərən vəkillərin seçim meyarlarının Vəkillər Kollegiyası ilə razılaşdırılması və s. məsələlərin vəkillik haqqında qanunvericilikdə əks etdirilməlidir;

**b)** İmkansız şəxslərə inzibati prosessual və mülki prosessual qanunvericilikdə hüquqi yardımın göstərilməsinin mexanizmləri – ehtiyacı olan şəxs üçün hakim tərəfindən pulsuz hüquqi xidmət göstərən vəkilin təyin olunması, onlara verilən ödənişlərin qaydası müəyyənləşdirilməlidir;

**c)** "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında", "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında", "Ahıllara sosial

xidmət haqqında", "Sosial xidmət haqqında", "Psixiatriya yardımı haqqında" və "Veteranlar haqqında" Azərbaycan Respublikasının qanunlarına əsasən həmin qanunlarda qeyd olunan şəxslərin hüquqi yardım almaq statusları aidiyyəti qanunvericilikdə təsbit olunmalıdır;

**d)** Qanun layihəsinə əsasən, Ədliyyə Nazirliyinin nümayəndəsinin Milli Şurada təmsil olunması və Milli Şuranın rüblük maliyyə hesabatlarının Ədliyyə Nazirliyinə təqdim etməsi, habelə Şura tərəfindən Milli Məclisə illik hesabatlar təqdim etməsi müvafiq olaraq Ədliyyə Nazirliyinin Əsasnaməsində və Milli Məclisin Daxili Nizamnaməsində müvafiq dəyişikliyin edilməsini labüd edir;

**e)** Bu cərədə Ədliyyə Akademiyasının Nizamnaməsinin adını da çəkmək olar. Çünki qanun layihəsinə əsasən Ədliyyə Akademiyası hüquqi yardım göstərən hüquqşünasların ilkin və davamlı tədrisini təşkil edən qurum olaraq qeyd olunur;

**f)** Tutulmuş və ya həbsə alınmış şəxsin tələbi ilə habelə müdafiəçinin iştirakı məcburi olan hallarda həmin şəxsin müdafiəçinin köməyindən istifadə etmək hüququnu təmin etməsi vəzifəsinin polisin üzərinə düşməsi "Polis haqqında" qanuna dəyişiklik edilməsini tələb edir.

Qeyd olunan cari qanunvericilikdən başqa Milli Şura tərəfindən hüquqi yardım almaq istəyən şəxslərin müraciətlərinə baxılması qaydaları, bundan başqa hüquqi yardım göstərən ərazi bürolarının fəaliyyətlərini ətraflı tənzimləyəcək əsasnamənin qəbul olunması hüquqi yardım xidmətinin təşkil edilməsində mühüm faktordur.

## 3.5. "Ödənişsiz hüquqi yardım haqqında" qanunun tətbiqinin sosial-hüquqi nəticələri

Qanun layihəsində əks olunacaq hüquq normalarının sosial-hüquqi xarakterli məsələlərin həllində aşağıdakılar qeyd olunmalıdır.

Qeyd olunan qanun vasitəsi ilə aztəminatlı və əhalinin sosial cəhətdən həssas qruplarının ödənişsiz hüquqi yardıma çıxış imkanları təmin olunacaqdır. Burada söhbət fəaliyyət göstərən qanunvericiliklə müqayisədə ödənişsiz hüquqi yardımın göstəriləcəyi məsələlərin və şəxslərin dairəsinin genişləndirilməsindən gedir.

Avrop Hakimlərinin Məşvətərçi Şurasının illik hesabatlarında Azərbaycanın adı Avropa Şurasına üzv ölkələr arasında adambaşına düşən vəkilin sayına görə ən aşağı göstəricilərlə xarakterizə olunmuşdur. Son dövrlər Vəkillər Kollegiyasına qəbulla bağlı seçim imtahanlarının aparılmasına və dolayısilə vəkillərin sayının artırılmasına diqqət yetitirlməsinə baxmayaraq, statistikaya görə Respublikanın 64 rayonundan yalnız 25-də hüquq məsləhətxanaları mövcuddur və 100 000 adama 9 vəkil düşür. Hüquqi xidmətlər məşğul olan vəkillərin əksəriyyəti paytaxtda məskunlaşmışlar. Regionlarda isə vəziyyət kifayət qədər acınacaqlıdır. Qeyd olunan problem əhalinin hüquqi xidmətlrədən yararlana bilmə vasitələrini əllərindən almış olur. Bu problemə gənclərin vəkillik və hüquqi xidmət sahəsinə maraqlarının az olmaları da əlavə oluna bilər. Buna görə də belə hallar dövlətlə vətəndaşlar arasında sosial gərginliyə münbit zəmin yaratmış olur. Lakin ölkə ərazisində hüquqi yardım işinin səmərəli təşkili əhali arasında ədalət mühakimsinə və dövlətə olan inamı güləndirməklə istənilən sosial gərginliyi aradan qaldırmış olar.

Hər gün yüzlərlə insan öz hüquqlarının bərpası ilə bağlı məhkəmələrə, müəyyən hüquqların əldə edilməsi üçün müxtəlif dövlət orqanlarına müraciət edirlər. Lakin əhalinin müəyyən təbəqəsinin savadsız olması, digər bir qisminin pensiyaçı və ya əlil olması onların öz problemlərinin həlli istiqamətində hüquqşünasın köməyi olmadan addım atmaları bəzən müşkül hala çevrilmiş olur. Məntiq etibarilə regionlarda hüquq yardım ofislərinin açılması nəinki qeyd olunan əhali qrupuna dəstək baxımından, həm də onların maarifləndirilməsi baxımından faydalı ola bilər.

Bundan başqa ölkəmizdə gənc hüquqşünasların işlə təmin olunması ilə bağlı problemlərin həllində qanun layihəsində nəzərdə tutulmuş ərazi bürolarının açılması səmərəli ola bilər. Bu həm regiondakı hüquqşünasların paytaxta axının qarşısını almış olar, həm də onların peşə fəaliyyətlərinin yaşadıqları regionda tətbiqinə imkan yaratmış olar.

Sonda qeyd olunmalıdır ki, hər bir dövlətin məqsədi öz əhalisinin yüksək rihaf səviyyəsini təmin etmək, insanların öz dövlətlərinə inam və etimadlarının

göcləndirilməsinə nail olmaqdır. Sözün əsl mənasında effektiv şəkildə təşkil olunmuş hüquqi yardım xidməti əhalinin ədalət mühakiməsinə inamının gücləndirilməsində ən təsiredici vasitədir ki, bu üsuldan da həm mütərəqqi Avropa və bir sıra dünya ölkələri uğurla istifadə etməkdədirlər. Təbii ki, Azərbaycan kimi həm coğrafi, həm multi-etnik, həm də regional baxımdan siyasi baxımdan həssas olan bölgədə qeyd olunan təcrübənin müsbət nəticələr verəcəyi şəkksizdir.

## 3.6. "Ödənişsiz hüquqi yardım haqqında" qanun layihəsinin dövlət büdcəsindəki yeri

Məlum olduğu kimi Azərbaycan Respublikası son dövrlər iqtisadi inkişaf tempinə görə yüksək sürətlə irəliləməkdədir. "Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsi haqqında" Qanununa əsasə 2012-ci ilin dövlət büdcəsinin xərcləri təxminən 22 milyard dollara bərabərdir. Bu, ölkə tarixində ən böyük göstəricidir. İcmal büdcə isə təxminən 25 milyard dollar səviyyəsindədir. Dolayısilə qeyd olunan məbləğ çərçivəsində bütün sosial proqramlar, sosial ödəmələr, sosial infrastruktur layihələri bu büdcə ilə icra edilə biləcək səviyyədədir.

Bundan başqa hazırda adambaşına düşən ümumi daxili məhsul (ÜDM) 7 min dollardır və ölkə üzrə yoxsulluq səviyyəsi 7,6 faiz təşkil edir.

Təkcə o qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2011-ci il büdcəsinin gəlirləri 13 milyard manat, xərcləri 10 milyard manat məbləğində olmuşdur. Ümumiyyətlə, ölkə iqtisadiyyatı inkişaf potensialı imkan verir ki, Azərbaycan dövləti gələcəkdə sosial yönümlü tədbirləri maliyyəşləşdirsin.

Ödənişsiz hüquqi yardım xidmətinin maliyyələşdirilməsi isə Azərbaycanın insan hüquqlarının təmin edilməsi sahəsində götürdüyü öhdəliklərinin icrası, beynəlxalq aləmdə dövlətimizin demokratik imicinin möhkəmləndirilməsi və sosial-siyasi stabilliyin təmin edilməsində çox mühüm faktor rolunda çıxış edə bilər. "Ödənişsiz hüquqi yardım haqqında" qanun layihəsinin isə qəbulunun əsas qayəsini qeyd olunan məqamlar təşkil edir.

*P.S. - "Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən, məhkəmə qərarlarının icrası, məhkəmə prosesləri ilə bağlı göstərilən hüquqi yardım üçün ayırmış vəsaitin məbləği **3 728 693,0** manatdır. Halbu ki, 2011-ci ilin büdcə xərclərində bu məbləğ **3 591 809,0** manat idi. Dolayısilə artım göstərici **4** faiz təşkil edilir. Zənnimizcə, qeyd olunan xərc məbləğinin rasional istifadəsi üzrə mütərəqqi qurumların (hüquqi yardım bürolarının) yaradılması məqsədəmüvafiq olardı.*

# "Dövlət tərəfindən təmin edilən hüquqi yardım haqqında" Azərbaycan Respublikasının

# KONSTİTUSİYA QANUNU

Azərbaycan Respublikasının Konstitusiyasının 61-ci maddəsi və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 6-cı maddəsində qeyd olunmuş hüquqların ədalətli məhkəmə tərəfindən müdafiəsinin zəururiliyini, hüquqi yardımın göstərilməsi və onun təşkili yolu ilə hüquqi yardıma sərbəst və bərabər çatımlılığın təmin edilməsini, habelə ədalət mühakiməsinə çatımlılığın həyata keçirilməsində maliyyə-iqtisadi maneələrin ortadan qaldırılımasını nəzər alaraq,

Azərbaycan Respublikasının Milli Məclisi bu konstitusiya qanununu qəbul edir.

## 1-ci fəsil. ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Qanunun tənzimetmə predmeti**

Bu qanun insan hüquq və azdlıqlarının, habelə onun qanuni maraqlarının müdafiəsi məqsədi ilə dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsinin şərtləri, həcmi və qaydalarını tənzimləyir.

**Maddə 2. Əsas anlayışlar**

Qanunda aşağıdakı əsas anlayışlardan istifadə olunur:

**Dövlət tərəfindən təmin edilən hüquqi yardım** – ödəmək üçün kifayət qədər maliyyə vəsaitlərinə malik olmayan və bu qanunla müəyyən edilmiş şərtlərə cavab verən şəxslərə bu qanunla müəyyən edilmiş qaydada ayrılmış xüsusi vəsait hesabına hüquqi xidmətin göstərilməsi;

**İlkin hüquqi yardım** – Azərbaycan Respublikasının hüquq sistemi, qüvvədə olan normativ aktlar, hüquq subyektlərinin hüquq və vəzifələri, məhkəmədənkənar və məhkəmə qaydasında hüquqların həyata keçirilməsi və onlardan istifadə olunması üsulları barədə məlumatlandırma; hüquqi məsələlər üzrə məsləhətlərin verilməsi; hüquqi xarakterli sənədlərin hazırlanmasına kömək göstərilməsi; peşəkar hüquqi yardım anlayışı altına düşməyən digər yardım formaları;

**Peşəkar hüquqi yardım** – hüquqi məsləhətin verilməsi, cinayət işi, inzibati xətalar, mülki və inzibati işlərlə bağlı cinayət təqibi orqanlarında, məhkəmələrdə, habelə dövlət idarəetmə orqanlarında təmsil edilmə;

**İctimai vəkil** –qanunvericiliyə əsasən, vəkillik fəaliyyətini həyata keçirən, dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi üçün ayrılmış xüsusi vəsait hesabına ödənişsiz və ya qismən ödənişli peşəkar hüquqi yardımın göstərilməsi üçün müəyyən meyarlar əsasında seçilmiş şəxs;

**Parayursit** – parayuristlərin statusu və ixtisaslaşması haqqında qaydalara əsasən, ali hüquq təhsili olan, vəkillik fəaliyyəti ilə məşğul olmayan, xüsusi təlim keçdikdən sonra dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi üçün ayrılmış xüsusi vəsait hesabına ilkin hüquqi yardım göstərən şəxs.

**Maddə 3. Dövlət tərəfindən təmin edilən hüquqi yardımın növləri**

Bu qanuna müvafiq olaraq səlahiyyətli şəxslər dövlət tərəfindən təmin edilən hüquqi yardımı aşağıdakı formalarda göstərirlər:

a) ilkin hüquqi yardım;

b) peşəkar hüquqi yardım.

**Maddə 4. Dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsinin prinsipləri**

Dövlət tərəfindən təmin edilən hüquqi yardım aşağıdakı prinsiplər əsasında göstərilir:

a) bu yardımdan yararlanan bütün şəxslərin hüquqlarının bərabərliyi;

b) bu yardımı göstərən şəxslərin peşəkar yararlılığı;

c) yardımın keyfiyyəti, effektivliyi və iqtisadi səmərəliliyi;

d) konfidensiallıq;

e) maraqların toqquşmasının yolverilməzliyi.

**Maddə 5. Dövlətin təminatları**

Hüquqi yardıma sərbəst çatımlılıq prinsipinin həyata keçirilməsi məqsədi ilə dövlət onun tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi üzrə məsul olan qurumların təşkilini və fəaliyyət göstərmələrini, habelə bu qanuna əsasən, hüquqi yardımın göstəriləməsi üçün zəruri büdcə vəsaitlərinin ayrılmasını təmin edir.

**Maddə 6. Dövlət tərəfindən təmin edilən hüquqi yardımdan yararlanmaq hüquqi olan şəxslər**

(1) Azərbaycan Respublikası vətəndaşlarına dövlət tərəfindən göstərilən hüquqi yardımın həddləri bu qanunla və digər müvafiq qanunvericilik aktları ilə müəyyənləşdirilir.

(2) Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət tərəfindən təmin edilən hüquqi yardımdan bu qanuna müvafiq olaraq Azərbaycan Respublikasının dövlət idarəetmə orqanlarında və məhkəmələrində yararlana bilərlər.

**Maddə 7. Dövlət tərəfindən təmin edilən hüquqi yardımın formaları**

Dövlət tərəfindən təmin edilən hüquqi yardım aşağıdakı formalarda həyata keçirilir:

a) hüquqi məsələlərlə bağlı məlumatlandırmanın həyata keçirilməsi, məsləhət və izahların verilməsi;

b) hüquqi xarakterli sənədlərin hazırlanması;

c) dövlət idarəetmə orqanlarında təmsil etmə;

d) cinayət prosesi çərçivəsində şübhəli, təqsirləndirilən şəxslərin maraqlarının müdafiəsi;

e) məhkumun maraqlarının müdafiəsi və təmsil olunması;

f) inzibati xətalara dair işlər üzrə məhkəmə icraatı zamanı şəxsin maraqlarının müdafiəsi;

g) şəxsin mülki proses zaman maraqlarının müdafiəsi və təmsil olunması;

h) şəxsin maraqlarının inzibati-iqtisadi məhkəmələrdə müdafiəsi və təmsil olunması.

## 2-ci fəsil. DÖVLƏT TƏRƏFİNDƏN TƏMİN EDİLƏN HÜQUQİ YARDIMIN GÖSTƏRİLMƏSİ PROSESİNİN İDARƏ OLUNMASI

**Maddə 8. Dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi sistemini idarə edən orqanlar**

Dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi sistemi aşağıdakılar tərəfindən idarə olunur:

a) Ədliyyə Nazirliyi;

b) Vəkillər Kollegiyası;

c) Dövlət tərəfindən təmin edilən hüquqi yardım üzrə Milli Şura və onun ərazi büroları.

**Maddə 9. Dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi sahəsində Ədliyyə Nazirliyinin funksiyaları**

Dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi sahəsində Ədliyyə Nazirliyinin funksiyalarına aşağıdakılar daxildir:

a) dövlət tərəfindən təmin edilən hüquqi yardım işi sahəsində dövlət siyasətini müəyyən edir;

b) dövlət tərəfindən təmin edilən hüquqi yardım işi sahəsində normativ aktların layihələrini hazırlayır;

c) dövlət tərəfindən təmin edilən hüquqi yardım işi sahəsində yeni normaların tətbiqi prosesinin monitorinqini və bu yardımın keyfiyyətinin qiymətləndirilməsini aparır;

d) dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi üzrə büdcə layihəsini hazırlayır və Maliyyə Nazirliyinə təqdim edir;

e) bu qanunla müəyyən edilən digər funksiyaları yerinə yetirir.

**Maddə 10. Dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi sahəsində Vəkillər Kollegiyasının funksiyaları**

Dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi sahəsində Vəkillər Kollegiyası aşağıdakı funksiyaları yerinə yetirir:

a) hüquqi yardımla məşğul olacaq vəkillərin seçim meyarlarının hazırlanmasında iştirak edir;

b) hüquqi yardımın keyfiyyətinin qiymətləndirilmə meyarlarının müəyyənləşdirilməsində iştirak edir;

c) hüuqi yardım göstərən vəkillərin fəaliyyətlərinin monitorinqində iştirak edir;

d) vəkillik haqqında və bu qanuna əsasən hüquqi yardım göstərən vəkillər barəsində intizam tənbeh tədbirini seçir;

e) bu qanunla müəyyən edilən digər funksiyaları yerinə yetirir.

**Maddə 11. Dövlət tərəfindən təmin olunan hüquqi yardım üzrə Milli Şura**

(1) Dövlət tərəfindən təmin olunan hüquqi yardım üzrə Milli Şura (bundan sonra "Milli Şura" adlandırılacaq) kollegial, ümumi hüquq subyektliyinə malik, 7 üzvdən ibarət və dövlət tərəfindən təmin olunan hüquqi yardımın göstərilməsi prosesini idarə edən hüquqi şəxsdir.

(2) Milli Şuranın tərkibi 1-i Ədliyyə Nazirliyi, 3-ü Vəkillər Kollegiyası, 1-i Maliyyə Nazirliyi, 1-i Məhkəmə-Hüquq Şurası, 1-i ictimai birliklər tərəfindən təyin olunan üzvlərdən ibarətdir.

(3) Ali hüquq və ya iqtisadiyyat (Maliyyə Nazirliyi tərəfindən təyin olunan üzv üçün) təhsilli, ixtisası üzrə 5 ildən artıq əmək stajına, habelə cəmiyyət arasında nüfuza malik olan şəxslər Milli Şuraya üzv təyin oluna bilərlər. Milli Şuranın səlahiyyət müddəti 4 ildir. Eyni şəxs ardıcıl olaraq iki dəfədən artıq Milli Şuranın üzvü təyin edilə bilməz.

(4) Milli Şuraya üzvlük müddəti üzvün səlahiyyət müddətinin bitməsi, üzvlükdən çıxmaq barədə yazılı ərizə verməsi və ya vəfatı ilə bitir. Milli Şuranın üzvü öz vəzifələrinin icrasına imkan verməyən səbəblərə görə onu icra edə bilmədikdə, Şura üzvlərinin ən azı 2/3 səs çoxluğu ilə, habelə öz vəzifələrini icra etmədikdə və ya müəyyən olunmuş qaydada icra etmədikdə onu təyin edən orqan tərəfindən geri çağırıla bilər. Milli Şuranın yeni üzvü öz funksiyalarını geri çağırılmış üzvün səalhiyyət müddəti çərçivəsində icra edir.

(5) Milli Şuranın sədri gizli səsvermə yolu ilə onun üzvləri arasından seçili və Şura üzvünün səlahiyyət müddəti ərzində fəaliyyət göstərir. Milli Şuranın sədri onun üzvlərinin ən azı 1/3-nin səs çoxluğu ilə vaxtından əvvəl geri çağırıla bilər. Sədrin geri çağırılması haqqında qərar açıq səsvermə yolu ilə üzvlərinin ən azı 2/3-nin səs çoxluğu ilə qəbul olunur.

(6) Milli Şuranın tərəfindən qəbul olunan qərarlar bütün ərazi büroları, hüquqi yardım göstərən vəkillər və parayuristlər üçün məcburidir.

(7) Milli Şurasının əsasnaməsi Ədliyyə Nazirliyi tərəfindən təsdiqlənir. Milli Şuranın fəaliyyəti direktor və digər işçilərdən ibarət olan inzibati aparat tərəfindən həyata keçirilir. İnzibati aparatın əsasnaməsi Milli Şura tərəfindən qəbul olunur.

(8) Milli Şuranın maddi-texniki təminatı Ədliyyə Nazirliyi tərəfindən dövlət büdcəsi hesabına, həmçinin qanunla qadağan edilməyən digər mənbələrdən maliyyələşdirilir.

**Maddə 12. Milli Şuranın səlahiyyətləri**

(1) Milli Şuranın vəzifələrinə daxildir:

a) dövlət tərəfindən təmin edilən hüquq yardım işi sahəsində siyasətin həyata keçirilməsi;

b) dövlət tərəfindən təmin edilən hüquq yardımın göstərilməsi işinə cəlb olunmuş şəxslərin ilkin və davamlı tədrisini Ədliyyə Akademiyası vasitəsilə də təmin edir;

c) bu qanunun həyata keçirilməsi təcrübəsini təhlil edir və onun vahid şəkildə tətbiqinə dair tövsiyələr qəbul edir;

d) dövlət tərəfindən təmin edilən hüquq yardım göstərən şəxslərin milli reyestrini aparır;

e) İnzibati aparatın və ərazi bürolarının fəaliyyətini təmin edir;

f) dövlət tərəfindən təmin edilən hüquq yardımın göstərilməsi sistemi üzrə illik fəaliyyətə dair hesbatı təsdiqləyir və onu Milli Məclis, Nazirlər Kabineti, Ədliyyə Nazirliyi və Vəkillər Kollegiyasına təqdim edir;

g) dövlət tərəfindən təmin edilən hüquq yardımın göstərilməsi üçün ayrılmış maliyyə vəsaitlərindən istifadə barədə Ədliyyə Nazirliyinə rüblük hesabat verir;

h) dövlət tərəfindən təmin edilən hüquq yardım sahəsində fəaliyyət göstərən xarici və beynəlxalq təşkilatlarla, habelə ictimai birliklərlə əməkdaşlıq edir;

i) dövlət tərəfindən təmin edilən hüquq yardımın göstərilməsi üzrə pilot proqramların tətbiqini təmin edir;

(2) Öz vəzifələrinin həyata keçirilməsi məqsədi ilə Milli Şura aşağıdakı funksiyaları həyata keçirir:

a) dövlət tərəfindən təmin edilən hüquq yardımın göstərilməsi prosesinə rəhbərlik edir;

b) dövlət büdcəsinə daxil edilməsi üçün dövlət tərəfindən təmin edilən hüquq yardımın göstərilməsi xərclərinə dair Ədliyyə Nazirliyinə təklif göndərir;

c) dövlət tərəfindən təmin edilən hüquq yardımın göstərilməsi üçün ayrılan büdcə vəsaitlərinin idarə olunmasına nəzarət edir, icraçı direktor vəzifəsinə namizədlərin seçimi üzrə müsabiqənin keçirilməsi qaydalarını müəyyən edir, Milli Şuranın icraçı direktorunu vəzifəyə təyin və vəzifədən azad edir;

d) ərazi bürolarının koordinatorlarının seçimi üzrə müsabiqənin keçirilməsi qaydasını müəyyən edir və onları təşkil edir;

e) peşəkar hüquqi yardım almaq hüququ verən gəlir səviyyəsini müəyyən edir və həmin gəlirlərin hesablanma metodikasını hazırlayaraq onları təsdiq etmək üçün Nazirlər Kabinetinə təqdim edir;

f) bu qanunla müəyyən edilmiş qaydada dövlət tərəfindən təmin edilən hüquqi yardımın alınması və göstərilməsi üçün lazım olan sənədlərin formalarını təqsdiqləyir;

g) Vəkillər Kollegiyası ilə razılaşdırılmaqla dövlət tərəfindən təmin edilən keyfiyyətli hüquqi yardımın göstərilməsi üçün vəkillərin seçim meyarlarını təsdiq edir;

h) dövlət tərəfindən təmin edilən peşəkar hüquqi yardım göstərən vəkillərin seçimi üzrə müsabiqənin keçirilməsi qaydalarını müəyyən edir;

i) dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsini həyata keçirən şəxslərin xidmətinin ödənilməsi qaydası və şərtlərini müəyyən edir;

j) dövlət tərəfindən təmin edilən hüquqi yardım göstərən vəkillərin, parayuristlərin və digər kateqoriyadan olan şəxslərin ixtisasartırmasını və fəaliyyət standartlarını müəyyən edir və mütəmadi olaraq onlara yenidən baxır;

k) Vəkillər Kollegiyası ilə razılaşdırılmaqla dövlət tərəfindən təmin edilən hüquqi yardımın keyfiyyətinin qiymətləndirilməsi meyarların müəyyən edir;

l) peşəkar hüquqi yardımın göstərilməsi və səlahiyyətli şəxslər tərəfindən göstərilən hüquqi yardımın keyfiyyətinin qiymətləndirilməsi prosesinin monitorinqini həyata keçirir;

m) hüquqi yardımın göstərilməsi barədə məlumatları təhlil edir və dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi sisteminin təkmilləşdirilməsi üzrə təkliflərə baxır;

(3) Milli Şura bu qanun və dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi sahəsində mövcud olan normativ aktlara əsasən digər funksiyaları həyata keçirir.

**Maddə 13. Milli Şuranın iclasları**

(1) Milli Şuranın iclasları rübdə bir dəfə keçirilir.

(2) Milli Şuranın növbədənkənar iclası Şura sədrinin, ədliyyə nazirinin və ya ən az 3 üzvünün tələbi ilə çağırılır.

(3) Milli Şuranın sədri Milli Şuranın iclaslarına sədrlik edir. Sədr olmadıqda iclaslara sədr tərəfindən təyin olunmuş üzv və ya digər hallarda iclasda iştirak etmiş üzvlər tərəfindən seçilmiş şəxs sədrlik edir.

(4) Milli Şuranın iclası üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli sayılır.

(5) Milli Şuranın qərarı sadə səs çoxluğu ilə qəbul olunur, sədr və iclas katibi tərəfindən imzalanaraq Şuranın internet səhifəsində dərc olunur.

(6) Milli Şuranın iclasının gedişatı iclasda iştirak edən üzvlər tərəfindən imzalanan protokolda öz əksini tapır

**Maddə $13^1$. Milli Şuranın İcraçı direktoru**

(1) İcraçı direktor vəzifəyə müsabiqə əsasında mandatının yalnız bir dəfə uzadılması şərti ilə Milli Şura tərəfindən 5 illik müddətə təyin olunur. İcraçı direktor vəzifəsinə namizədlərin seçimi və müsabiqənin keçirilmə qaydası Milli Şura tərəfindən müəyyən olunur.

(2) İcraçı direktorunun səlahiyyət müddəti mandatının qurtarması, onun ərizəsi və ya vəfat etməsi ilə bitir. İcraçı direktor öz vəzifələrini icra etmədikdə və ya lazımi qaydada icra etmədikdə, kifayət qədər peşəkarlığa malik olmadığı müəyyən edildikdə və ya sistematik şəkildə intizam pozuntusuna yol verdikdə Milli Şura tərəfindən tutduğu vəzifədən uzaqlaşdırılır.

(3) İcraçı direktor Milli Şuranın inzibati aparatının fəaliyyətinə rəhbərlik edir və aşağıdakı vəzifələri icra edir:

a) Milli Şuranın fəaliyyətini təmin edir və dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi sisteminin fəaliyyətinə nəzarət edir;

b) bu qanuna müvafiq olaraq dövlət tərəfindən təmin edilən hüquqi yardımın keyfiyyətinin qiymətləndirilməsini həyata keçirir;

c) dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi üçün ayrılmış büdcə vəsaitlərini idarə edir;

d) dövlət tərəfindən təmin edilən hüquqi yardım xidmətinin məbləğini qiymətləndirir, xərcləri planlaşdırır və təsdiq edilməsi üçün Milli Şuraya təqdim edir;

e) dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi sisteminin işi barədə illik hesabatı hazırlayır və təsdiq üçün Milli Şuraya təqdim edir;

f) Milli Şuranın ərazi bürolarının koordinatorlarının seçimi üzrə müsabiqələrin keçirilməsini təmin edir və nəticələri təsdiq edilməsi üçün Milli Şuraya təqdim edir;

g) Ərazi bürolarına seçilmiş namizədlərlə Milli Şuranın adından fərdi müqavilələr bağlayır;

h) dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərəcək vəkillərin seçimi üzrə müsabiqələrin keçirilməsini təmin edir və nəticələri təsdiq edilməsi üçün Milli Şuraya təqdim edir;

i) bu qanuna müvafiq olaraq dövlət tərəfindən təmin edilən hüquqi yardım göstərən şəxslərin xidmət haqqlarının ödənilməsini təmin edir;

j) dövlət tərəfindən təmin edilən hüquqi yardımın alınması və göstərilməsi üçün zəruri olan sənədlərin formalarını müəyyən edir və təsdiq edilməsi üçün Milli Şuraya təqdim edir;

k) dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsi üçün ayrılmış maliyyə vəsaitlərinin istifadəsinə dair hesabat formalarını hazırlayır və təsdiq edilməsi üçün Milli Şuraya təqdim edir;

l) dövlət tərəfindən təmin edilən hüquqi yardım göstərən vəkillərin, parayuristlərin və digər kateqoriyalı şəxslərin fəaliyyət standartları və peşəkarlıqlarının artırılmasına dair təkliflər hazırlayır;

m) peşəkar hüquqi yardımın göstərilməsinin meyarları və şərtlərinin təhlillərinin aparılması üsullarına dair təkliflər hazırlayır və təsdiq edilməsi üçün Milli Şuraya təqdim edir;

n) peşəkar hüquqi yardım almış fiziki və hüquqi şəxslərin, həmçinin belə yardımın göstərilməsindən imtina edilmiş şəxslərin şikayətlərinə baxır və bu şikayətlərin araşdırılması üzrə hesabatları Milli Şuraya təqdim edir;

o) bu qanunun müvafiq qaydada həyata keçirilməsi təcrübəsini ümumiləşdirir və onun tətbiqi üzrə tövsiyələr hazırlayır;

p) ərazi bürolarından dövlət tərəfindən təmin edilən hüquqi yardıma olan ehtiyaclar barədə statistik məlumatları toplayır, onları təhlil edir və bunun əsasında hüquqi yardımın göstərilməsi sisteminin təkmilləşdirilməsinə dair təkliflərlə çıxış edir;

q) İnzibati aparatın əsasnaməsini hazırlayır və təsdiq edilməsi üçün Milli Şuraya təqdim edir;

r) Milli Şuranın internet səhifəsində ictimai xarakterli məlumatlar dərc etməklə Milli Şuranın fəaliyyətinin təbliğini təmin edir;

s) bu qanuna uyğun olaraq digər funksiyaları həyata keçirir.

(4) Milli Şuranın inzibati aparatının əməkdaşları Şuranın kargüzarlıq işini həyata keçirir.

(5) İcraçı direktorun olmaması təqdirdə Milli Şura İcraçı direktorun olmadığı dövr üçün həmin vəzifəyə digər şəxsi təyin edə bilər.

(6) İcraçı direktorun və inzibati aparatın əməkdaşlarının əməklərinin ödənişi dövlət tərəfindən təmin edilən hüquqi yardım üçün ayrılmış vəsait hesabına həyata keçirilir.

**Maddə 14. Milli Şuranın ərazi büroları**

(1) Milli Şuranın ərazi büroları (bundan sonra "ərazi büroları" adlandırılacaq) ümumi hüquq subyektliyinə malik hüquqi şəxslərdir və apellyasiya palataları (məhkəmələri) yerləşən ərazilərdə fəlaiyyət göstərirlər.

(2) Ərazi büroları apellyasiya məhkəmələri yerləşən ərazidə dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsini təmin etməklə aşağıdakı funksiyaları yerinə yetirilər:

a) dövlət tərəfindən təmin edilən hüquqi yardımın göstərilməsini təşkil edir; dövlət tərəfindən təmin edilən hüquqi yardım göstərəcək və siyahıya daxil edilmiş vəkillərlə müqavilələr bağlayır;

b) hüquqi yardım üçün müraciət etmiş şəxslərin ərizə və sənədlərinə baxır və bu yardımın göstərilib-göstərilməməsi barədə qərar qəbul edir;

c) peşəkar hüquqi yardım, həmçinin təcili hüquqi yardımın göstərilməsi üçün vəkil təyin edir; hüquqi yardım göstərəcək parayuristlər və ictimai birliklərlə müqavilələr bağlayır;

d) hüquqi yardıma olan ehtiyac və müvafiq ərazilərdə hüquqi yardımla təminetmənin səviyyəsinə dair statistik məlumatları toplayır;

e) bu qanuna uyğun olaraq digər funksiyaları həyata keçirir.

(3) Ərazi büroları rüblük olaraq Milli Şuraya görülmüş işlər üzrə hesabat təqdim edir.

(4) Peşəkar hüquqi yardım göstərilməsinin təmin edilməsi işini Milli Şuranın təşkil etdiyi və müvafiq qaydada keçirdiyi müsabiqənin nəticəsində seçdiyi və təyin etdiyi ərazi bürosunun koordinatoru həyata keçirir.

(5) Ərazi bürosunun koordinatoru öz fəaliyyətini onun hüquq və vəzifələrini, habelə iş qaydasını müəyyən edən müqavilə əsasında həyata keçirir.

(6) Milli Şura müvafiq məhkəmə instansiyalarını, cinayət təqibi və digər maraqlı orqanları ərazi bürolarının koordinatorlarının təyinatı barədə məlumatlandırır.

(7) Yerli icra hakimiyyəti orqanları, öz fəaliyyətlərini həyata keçirmələri üçün ərazi bürolarını müvafiq qeyri-yaşayış sahəsi ilə təmin edirlər.

(8) Ərazi bürolarında koordinator və büronun aparatı fəaliyyət göstərir. Ərazi bürolarının əsasnamələri Milli Şura, əməkdaşlarının say həddi isə Ədliyyə Nazirliyi tərəfindən təsdiqlənir.

(9) Koordinatorun və əməkdaşlarının əməklərinin ödənişi dövlət tərəfindən təmin edilən hüquqi yardım üçün ayrılmış vəsait hesabına həyata keçirilir.

## 3-cü fəsil. İLKİN HÜQUQİ YARDIM

### Maddə 15. İlkin hüquqi yardım

(1) İlkin hüquqi yardım gəlirlərinin səviyyəsindən asılı olmayaraq 6-cı maddədə qeyd olunan şəxslərə göstərilir.

(2) İlkin hüquqi yardım bu qanuna uyğun olaraq belə yardımın göstərilməsi üzrə ixtisaslaşmış parayuristlər və ictimai birliklər tərəfindən həyata keçirilir.

(3) İlkin hüquqi yardımın göstərilməsi prosesinin idarə edilməsi və bu yardımın keyfiyyəti üzərində nəzarətin təşkilini Milli Şura həyata keçirir.

### Maddə 16. Parayuristlər

(1) Parayuristlər öz fəaliyyətlərini Milli Şura tərəfindən təsdiq olunan əsasnamə əsasında həyata keçirirlər.

(2) Parayuristlər məşvərət bürolarında birləşmək hüququna malikdirlər.

(3) Parayuristlərin tədrisi büdcədən bunun üçün ayrılmış vəsait və qanunla qadağan edilməyən digər mənbələr hesabına Milli Şura tərəfindən həyata keçirilir.

(4) Parayuristlərin əməklərinin ödənişi fəaliyyət göstərəcəkləri ərazi büroları ilə bağlanmış müqavilə əsasında dövlət büdcəsi vəsaitləri, habelə qanunla qadağan edilməyən digər mənbələr hesabına həyata keçirilir.

(5) Yerli icra hakimiyyəti orqanları parayuristləri qeyri-yaşayış sahəsi və maddi-texniki vasitələrlə təchiz edə bilərlər.

**Maddə 17. İctimai birliklər tərəfindən ilkin hüquqi yardımın göstərilməsi**

(1) Hüquqi yardımın göstərilməsi sahəsində ixtisaslaşmış ictimai birliklər ilkin hüquqi yardım göstərmək hüququna malikdirlər.

(2) Bu qanuna uyğun olaraq Milli Şura ilkin hüquqi yardımın göstərilməsi ilə bağlı ictimai briliklərlə əməkdaşlıq haqqında sazişlər bağlaya bilərlər.

(3) İctimai briliklər haqqında qanunvericiliyə müvafiq olaraq dövlət ictimai birliklərin fəaliyyətinə müvafiq dəstək verir.

**Maddə 18. İlkin hüquqi yardımın göstərilməsinin qaydası**

(1) İlkin hüquqi yardıma ehtiyacı olan şəxslər yaşayış yeri üzrə bu qanunun 15-ci maddəsinin 2-ci hissəsində göstərilən səlahiyyətli subyektlərə yazılı və ya şifahi formada müraciət edirlər.

(2) İlkin hüquqi yardım bilavasitə müraciət olunduğu andan göstərilməyə başlanılır. Əgər dərhal hüquqi yardım göstərilməsi mümkün deyildirsə, səxsə hüquqi yardımın göstəriləcəyi tarix və saat bildirilməklə ona yazılı və ya şifahi müraciətin daxil olduğu gündən etibarən 3 gün ərzində müvafiq yardım göstərilməlidir.

(3) İlkin hüquqi yardım almaq üçün müraciət etmiş şəxs müraciət etdiyi məsələ ilə əlaqədar yeni halların ortaya çıxması nəzər alınmamaq şərti ilə eyni məsələ ilə bağlı yardım üçün yalnız bir dəfə müraciət edə bilər.

(4) Maraqların toqquşması müəyyən olunduği hallarda hüquqi yardım göstərən şəxs ərizəçinin razılığı ilə yardım göstərməyi davam etdirə bilər və ya belə yardımın digər səlahiyyətli şəxslərdən alına bilmə mümkünlüyü barədə ərizəçini məlumatlandıra bilər.

(5) İlkin hüquqi yardımın göstərilməsi zamanı müəyyən olunsa ki, peşəkar hüquqi yardımın göstərilməsinə ehtiyac var, bu zamanı ərizəçi belə yardımın alınması şərtləri

barədə məlumatlandırılır və ərizəçinin xahişi ilə peşəkar hüquqi yardımın alınması üçün ərizənin hazırlanmasına köməklik göstərilir.

(6) İlkin hüquqi yardımın göstərilməsinin uçotu onu göstərən subyekt tərəfindən ərizəçinin soyadı, adı, fərdi məlumatları, yaşayış yeri, şikayətinin məzmunu, hüquqi yardımın göstərilmə müddəti və belə məsləhətin göstərilməsinin nəticələrinin qeyd olunduğu xüsusi reyestrdə aparılır. Şəxs yardım almaq üçün şifahi qaydada müraciət etdikdə ilkin hüquqi yardımın göstərilməsi onun reyestrdəki imzası ilə təsdiq olunur.

## 4-cü fəsil. PEŞƏKAR HÜQUQİ YARDIM

### 1-ci hissə. Peşəkar hüquqi yardımın göstərilməsinin meyarları

**Maddə 19. Peşəkar hüquqi yardım almaq hüququ olan şəxslər**

(1) Peşəkar hüquqi yardım almaq hüququna bu qanunun 6-cı maddəsində göstərilən və aşağıdakı meyarlara cavab verən şəxslər sahibdirlər:

a) cinayət işləri ilə bağlı hüquqi yardıma ehtiyac yaranan zaman ədalət mühakiməsinin maraqları tələb etdiyi, lakin belə yardımı ödəmək üçün kifayət qədər vəsaitləri olmayan şəxslər;

b) cinayət təqibi və ya inzibati xətalarla bağlı məhkəmə icraatı üzrə tutulmuş şəxslərə təcili hüquqi yardımın göstərilməsinə ehtiyacın yaranması zamanı;

c) Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində göstərilən əsaslarla məcburi hüquqi yardımın göstərilməli olduğu zaman;

d) Azərbaycan Respublikasının mülki-prosessual qanunvericiliyində göstərilən əsaslarla məcburi hüquqi yardımın göstərilməli olduğu zaman;

e) inzibati hüquqpozmalar, mülki və inzibati işlərlə bağlı hüquqi yardıma ehtiyacı olan və bu xidmətin ödənilməsi üçün kifayət qədər vəsaiti olmayan, habelə belə işlərin hüquqi və prosessual cəhətdən mürəkkəbliyi ilə bağlı müraciət edilməsi zamanı;

(2) Peşəkar hüquqi yardımın göstərilməsi üçün cinayət prosesinin instənilən mərhələsində, mülki işlərdə isə prosesin başlanılmasınadək müraciət oluna bilər.

(3) Peşəkar hüquqi yardımdan istifadə edən şəxslərin vəzifələri aşağıdakılardır:

a) hüquqi yardım göstərən səlahiyyətli şəxslərlə əməkdaşlıq etmək;

b) yardım göstəriləcək işlə əlaqədar həqiqi məlumatlar təqdim etmək;

c) keyfiyyətli hüquqi yardımın göstərilməsinə səbəb olan vəziyyətin dəyişməsi ilə bağlı hüquqi yardım göstərən səlahiyyətli şəxsləri, həmçinin prosessual hərəkətləri aparanları gecikdirilmədən məlumatlandırmaq;

**Maddə 20. Gəlir səviyyəsindən asılı olmayaraq peşəkar hüquqi yardımın göstərilməsi**

Gəlir səviyyəsindən asılı olmayaraq peşəkar hüquqi yardım aşağıdakı hallarda göstərilir:

a) bu qanunun 19-cu maddəsinin 1-ci hissədinin b)-d) bəndlərində göstərilən şəxslərə;

b) inzibati xəta törədilməsində şübhəli bilinən və həmin əmələ görə inzibati həbs cəzası nəzərdə tutulan şəxslərə;

c) inzibati xəta törədilməsinə görə ölkə hüqdudlarından kənara inzibati qaydada çıxartma cəzasının tətbiqi riski olan şəxslərə;

d) barəsində cərimə və ya ictimai işlər növündən seçilmiş cəzanın azadlıqdan məhrumetmə və ya inzibati xətaya görə həbs cəzası ilə dəyişdirilən şəxslərə;

e) bu qanuna müvafiq olaraq hüquqi yardım almaq üçün ərizə verənədək 6 təqvim ayı müddətində sosial yardım alan şəxslərə.

**Maddə 21. Gəlir səviyyəsindən asılı olaraq peşəkar hüquqi yardımın göstərilməsi**

(1) Bu qanunun 19-cu maddəsinin 1-ci hissəsinin a) və e) bəndinə uyğun olaraq dövlət tərəfindən təmin olunan peşəkar hüquqi yardımdan gəlir səviyyəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən hüquqi yardım almaq üçün müəyyənləşdirilmiş normadan aşağı olan şəxslər istifadə edə bilərlər.

(2) Hüquqi yardım üçün müraciət edən şəxsin gəlir səviyyəsi müəyyənləşdirilərkən onun aylıq gəliri və hüquqi yardım almaq üçün ərizə ilə müraciət etməmişdən öncəki 6 təqvim ayı ərzindəki qazancı nəzərə alınır.

(3) Dövlət hesabına hüquqi yardım almaq hüququ verən gəlirin və gəlir səviyyəsinin hesablanması metodikası, həmçinin gəlir bəyannaməsinin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiqlənir.

(4) Dövlət hesabına hüquqi yardım almaq hüququ verən gəlir səviyyəsi pul gəlirlərinin indeksasiyasına uyğun olaraq mütəmadi şəkildə müəyyənləşdirilir.

(5) Dövlət hesabına hüquqi yardım almaq istəyən bu maddənin 1-ci hissəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş gəlir bəyannaməsi təqdim edirlər.

**Maddə 22. Qismən ödənişsiz peşəkar hüquqi yardım**

(1) Dövlət hesabına hüquqi yardım həmçinin gəlir səviyyəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş həddlərdən artıq olan və peşəkar hüquqi yardımın göstərilməsi ilə bağlı xərclərin bir hissəsini ödəyə bilən şəxslərə də göstərilir. Belə halda dövlət hesabına hüquqi yardım şəxsə onun maliyyə və maddi imkanlarını aşmamaq şərti ilə göstərilə bilər.

(2) Qismən ödənişsiz keyfiyyətli hüquqi yardımın göstərilməsi qayda və şərtləri Milli Şura tərəfindən müəyyənləşdirilir.

**Maddə 23. Peşəkar hüquqi yardımın göstərilməsi üzrə xərclərin ödənilməsi**

(1) Mülki və ya inzibati işlərlə bağlı məhkəmə tərəfindən dövlət hesabına hüquqi yardım almış şəxsin xeyrinə qərar çıxarılarsa, hüquqi yardımın göstərilməsi ilə bağlı xərclər işi uduzan şəxsdən tutulur.

(2) Ərazi bürosunun yanılmasına səbəb olan saxtalaşdırılmış və ya səhv məlumatların təqdim olunması nəticəsində (xüsusilə maliyyə vəziyyəti ilə bağlı) dövlət hesabına hüquqi yardım almış şəxs, göstərilmiş hüquqi yardımla bağlı bütün xərcləri ödəməlidir.

(3) Hüquqi yardımın göstərilməsi prosesi və ya məhkəmə qərarının icrası vaxtı şəxsin maliyyə vəziyyətinin yaxşılaşması onun tam və ya qismən dövlət hesabına hüquqi yardım almaq hüququndan məhrum edirsə, həmin şəxs çəkilmiş xərcləri qarşılamalıdır.

(4) Bu maddənin (1)-(3) hissələrində çəkilmiş xərclərin qarşılanması ilə bağlı ödəmələr ərazi bürosunun hesabına köçürülür.

**Maddə 24. Peşəkar hüquqi yardımın göstərilməsindən imtinanın əsasları**

(1) Bu qanunun 19-cu maddəsində göstərilən şəxslərə peşəkar hüquqi yardım göstərilmir, əgər:

a) hüquqi yardımın göstərilməsi barədə ərizə aşkar şəkildə əsassızdırsa;

b) həmin şəxslərin təqdim etdikləri sənədlərdən hüquqi yardım almaq hüquqları olmaması müəyyən olunarsa;

c) qanunvericiliyə müvafiq olaraq icraya yönəldilə bilinməyən əmlak çıxmaq şərti ilə, şəxsin əmlakı hüquqi yardımın göstərilməsi xərclərini qarşılayırsa.

(1.1) İnzibati xətalar, mülki və inzibati işlərlə bağlı peşəkar hüquqi yardımın göstərilməsindən imtina edilə bilər, əgər:

a) ərizə müraciət edən şəxsin kommersiya fəaliyyəti ilə əlaqəlidirsə;

b) iddianın məbləği Hökumətin müəyyənləşdirdiyi yaşayış minimumundan aşağıdırsa;

c) şəxsə artıq həmin işlə bağlı peşəkar hüquqi yardım göstərilirsə;

d) ərizə şərəf, ləyaqət və ya işgüzar nüfuzun ləkələnməsi nəticəsində dəymiş zərərin ödənilməsi ilə bağlıdır;

e) cavabdeh tərəf olduğu hallardan başqa, şəxs vergi, rüsum və dövlətin digər ödəmələri ilə bağlı hüquqi yardım almaq üçün ərziə vermişsə;

f) tikililər arasındakı məsafə nəzərə alınmaqla tikintinin dağılmasının aradan qaldırılması, torpaq mərzləri ilə bağlı məsələləri çıxmaq şərti ilə, qonşuluq hüquqlarının pozuntusu ilə bağlıdırsa.

(2) Peşəkar hüquqi yardımın göstərilməsindən imtina barədə cavab əsaslı olmalıdır və bununla bağlı cavab alındığın gündən etibarən 15 gün ərzində inzibati məhkəməyə şikayət verilə bilər.

## 2-ci hissə. Peşəkar hüquqi yardımın göstərilməsi qaydası

### Maddə 25. Peşəkar hüquqi yardımın göstərilməsi barədə ərizə

(1) Peşəkar hüquqi yardımın göstərilməsi barədə ərizə bu qanunun 19-cu maddəsində qeyd olunan şərtlərə cavab verən şəxslər tərəfindən verilə bilər.

(2) Peşəkar hüquqi yardımın göstərilməsi barədə ərizə Milli Şuranın təsdiq etdiyi nümunə əsasında təqdim olunur;

(3) Bu qanunun 19-cu maddəsinin 1-ci hissəsinin a) və e) bəndlərində göstərilən şəxslər hüquqi yardım almaq üçün ərizəyə gəlirlər haqqında bəyannməni əlavə etməlidirlər.

(4) Peşəkar hüquqi yardımının göstərilməsi barədə ərizə şəxsin qohumu və ya nümayəndəsi ilə, şəxsən və poçt vasitəsi ilə təqdim oluna bilər.

**Maddə 26. Peşəkar hüquqi yardımın göstərilməsi barədə ərizə və ya sorğunun verilməsi**

(1) Bu qanunun 19-cu maddəsinin 1-ci hissəsinin a) bəndinə müvafiq olaraq peşəkar hüquqi yardım almaq istəyən şəxs bununla bağlı ərazi bürolarına, cinayət təqibi orqanına və ya məhkəməyə ərziə ilə müraciət edə bilər. Cinayət təqibi orqanı və ya məhkəmə ərizə və ona əlavə edilmiş sənədləri aldıqdan sonrakı üç gün ərzində ərazi bürosuna göndərməlidir. Peşəkar hüquqi yardımın göstərilməsi haqqında qərar ərazi bürosunun koordinatoru tərəfindən qəbul olunur və bununla bağlı ərizəçiyə 3 gün ərzində məlumat verilir.

(2) Bu qanunun 19-cu maddəsinin 1-ci hissəsinin b) bəndində göstərilən hallarda tutma həyata keçirən şəxs 1 saat ərzində növbətçi vəkilin təyin olunması barədə ərazi bürosuna sorğu verməlidir. Ərazi bürosunun koordinatoru sorğu alındıqdan sonrakı 3 saat ərzində növbətçi vəkili təyin edir və tutmanı həyata keçirən şəxsə və ya orqana təyin olunmuş vəkilin soyadı barədə məlumat verir.

(3) Bu qanunun 19-cu maddəsinin 1-ci hissəsinin c) və d) bəndlərinə müvafiq olaraq cinayət təqibi orqanı və ya məhkəmə bu Qanunun 25-ci maddəsində göstərilən hallarda hüquqi yardım almalı olan şəxsin ərizəsi olmadan, müdafiəçinin təyin olunması barədə ərazi bürosuna sorğu göndərir. Peşəkar hüquqi yardımın göstərilməsi barədə ərazi koordinatorunun qərarı onun qəbulundan sonrakı 1 iş günü ərzində belə yardıma ehtiyacı olan şəxsə  bildirilir.

(4) Bu qanunun 19-cu maddəsinin 1-ci hissəsinin e) bəndinə müvafiq olaraq peşəkar hüquqi yardım üçün müraciət edən şəxs 25-ci maddənin tələblərinə riayət etməklə ərazi bürosuna əlrizə ilə müraciət edir. Peşəkar hüquqi yardımın göstərilməsi barədə qərar ərazi bürosunun koordinatoru tərəfindən qəbul olunur və bu barədə ərizəçiyə 3 iş günü ərzində xəbər verilir.

**Maddə 27. Peşəkar hüquqi yardımın göstərilməsi barədə qərar**

(1) Peşəkar hüquqi yardımın göstərilməsi barədə qərarda aşağıdakılar göstərilir:

a) qərarın qəbul olunma tarixi və yeri;

b) qərar qəbul edən şəxsin adı və soyadı;

c) qərar qəbul etmiş orqanın adı;

d) ərizəçinin adı və soyadı;

e) müraciət olunan hüquqi yardımın forması;

f) peşəkar hüquqi yardımın göstərilməsi və ya onun göstərilməsindən imtinanın əsasları;

g) peşəkar hüquqi yardımın göstərilməsi üçün təyin edilmiş vəkilin soyadı, adı və digər məlumatlar;

h) qərardan şikayət verilməsi qaydası və müddəti;

i) digər zəruri məlumatlar.

(2) Ərazi bürosunun koordinatoru tərəfindən vəkil təyin olunarkən koordinator yardım üçün müraciət edən şəxsin konkret vəkilin təyin olunması barədə xahişini, həmin vəkilin peşəkar hüquqi yardımın göstərilməsi ilə bağlı məşğulluq dərəcəsini, habelə işin həlli üçün zəruri olan digər məsələləri nəzərə almalıdır.

(3) Peşəkar hüquqi yardım göstərən vəkilin hüquq və vəzifələri bu Qanuna müvafiq olaraq qəbul olunmuş hüquqi yardım göstərilməsi barədə qərarla təsdiq olunur.

(4) Müəyyən işlə bağlı peşəkar hüquqi yardımın gösətrilməsi üçün təyin olunmuş vəkil ərazi bürosunun koordinatorunun qərarı ilə aşağıdakı hallarda dəyişdirilə bilər:

a) peşəkar hüquqi yardım üçün müraciət etmiş şəxin əsaslandırılmış yazılı müraciəti əsasında;

b) peşəkar hüquqi yardım göstərən vəkilin əsaslandırılmış yazılı müraciəti əsasında;

c) müəyyən işlə bağlı peşəkar hüquqi yardımın göstərilməsi üçün təyin olunmuş vəkilin iştirakını aradan qaldıran maraqların toqquşması və ya digər hallarda.

**Maddə 28. Təcili hüquqi yardım**

(1) Bu qanunun 19-cu maddəsinin 1-ci hissəsinin b) bəndinə əsasən, təcili hüquqi yardımın göstərilməsinə ehtiyacı olan şəxsə tutmanı həyata keçirən şəxs və ya orqanın sorğusu əsasında ərazi bürosu növbətçi vəkilin təyin edilməsi ilə təcili hüquqi yardımın göstərilməsini təmin etməlidir. Ərazi bürosu hüquqi yardım göstərən vəkili onun qeydiyyatda olduğu ərazidən başqa digər ərazilərə hüquqi yardımın göstərilməsi üçün göndərə bilər. Bununla bağlı həmin ərazinin məhkəmə istansiyaları, cinayət təqibi və digər maraqlı orqanlar məlumatlandırılmalıdır.

(2) Bu Qanunun 33-cü maddəsinə əsasən peşəkar hüquqi yardım göstərənlərin siyahısına daxil edilmiş vəkillər onların razılıqları əsasında bir aylıq müddətdən az olmamaq və günün istənilən vaxtında növbətçi vəkil olaraq təyin olunmağa hazır olmaq şərti ilə növbətçi vəkillərin siyahısına daxil olunurlar.

(3) Hər bir ərazi bürosunun növbətçi vəkillərinin siyahısı olur.

(4) Növbətçi vəkilin təyin edilməsi barədə sorğu ərazi bürosuna yazılı, faks və ya telefon vasitəsi ilə verilir.

(5) Növbətçi vəkil şəxsin tutulduğu dövr ərzində ona hüquqi yardım göstərir.

## 3-cü hissə. Peşəkar hüquqi yardımın göstərilməsi səlahiyyətinə malik olan subyektlər

### Maddə 29. Vəkillər tərəfindən peşəkar hüquqi yardımın göstərilməsi

(1) Peşəkar hüquqi yardım ictimai vəkillər və müraciət əsasında hüquqi yardım göstərən vəkillər tərəfindən həyata keçirilir.

(2) Peşəkar hüquqi yardımın göstərilməsi üçün vəkillərin seçimi Milli Şura tərəfindən təşkil olunur və müsabiqə əsasında həyata keçirilir.

(3) Peşəkar hüquqi yardım göstərən vəkillərin seçim meyarları Vəkillər Kollegiyası ilə razılaşdırılmaqla Milli Şura tərəfindən müəyyən olunur.

(4) Peşəkar hüquqi yardım göstərilməsinin təmin edilməsi məqsədi ilə ərazi büroları Milli Şuranın təsdiqlədiyi forma uyğun olaraq hüquqi xidmət göstərəcək ictimai vəkillər və müraciət əsasında hüquqi yardım göstərən vəkillər ilə müqavilə bağlayırlar.

(5) Bu maddənin 4-cü hissəsində qeyd olunan müqavilələr vəkillərin hüquqi yardımın göstərilməsi ilə bağlı vəzifələrini, hüquqi yardımın göstərilməsi qaydası və şərtləri, bu xidmətin keyfiyyətinə nəzarətlə əlaqədar dövlətin hüquqlarını müəyyən edir.

(6) Milli Şura özü tərəfindən, həmçinin Ədliyyə Akademiyası vasitəsi ilə peşəkar hüquqi yardımın göstərilməsinə səlahiyyətli olan vəkillərin ilkin və davamlı tədrisini təşkil edir

(7) Peşəkar hüquqi yardım göstətən vəkillə Milli Şura tərəfindən müəyyən olunan keyfiyyət standartları və iş həcmi normalarını rəhbər tuturlar və vəkillik haqqında

qanunvericiliklə vəkillərin müstəqilliyi ilə bağlı müəyyənləşdirilən təminatlardan istifadə edirlər.

**Maddə 30. İctimai vəkillər**

(1) Ərazi bürosunun yerləşdiyi ərazi məntəqələri üzrə peşəkar hüquqi yardım bir qayda olaraq ictimai vəkillər tərəfindən həyata keçirilir. Ehtiyac yarandığı təqdirdə Milli Şura digər yaşayış məntəqələri üçün ictimai vəkillərin seçimini keçirə bilər.

(2) İctimai vəkillər öz fəaliyyətlərini Milli Şura tərəfindən təsdiq olunan İctimai vəkillik haqqında Əsasnamə əsasında həyata keçirirlər.

(3) İctimai vəkillər fərdi və ya vəkillik haqqında qanunvericiliyi əsasında yaradılmış vəkil bürolarının tərkibində fəaliyyət göstərirlər.

**Maddə 31. Müraciət əsasında hüquqi yardım göstərən vəkillər**

(1) Müraciət əsasında hüquqi yardım göstərən vəkilə vəkillik haqqında qanunvericiliyə əsasən vəkillik fəaliyyəti ilə məşğul olmaq hüququ verilən və dövlət tərəfindən təmin olunan hüquqi yardımın göstərilməsi üçün ayrılmış vəsait hesabına peşəkar hüquqi yardım göstərilməsi üçün tələb edilə bilən şəxs aiddir.

(2) Müraciət əsasında hüquqi yardım göstərən vəkillərin siyahısına daxil olmaq istəyən vəkillər zəruri sənədləri Milli Şuraya təqdim edirlər.

(3) Ərazi büroları bu Qanunun 29-cu maddəsinin 4-cü hissəsinə əsasən, müraciət əsasında hüquqi yardım göstərən vəkillərlə müqavilələr bağlayır. Bu müqavilə həmçinin fərdi və vəkil bürolarının tərkibində fəaliyyət göstərən vəkillərlə də bağlana bilər.

**Maddə 31.1. Ərazi bürosu tərəfindən təyin olunan vəkil**

(1) Əgər hər hansı bir ərazidə müraciət əsasında hüquqi yardım göstərən vəkillərin siyahısına daxil olan vəkil yoxdursa və ya həmin ərazidək vəkillər hüquqi yardımın göstərilməsi ilə bağlı sorğuları təmin edə bilmirsə, ərazi bürosu həmin ərazidə fəaliyyət göstərən, lakin müraciət əsasında hüquqi yardım göstərən vəkillərin siyahısına daxil olmayan vəkilləri təyin edir.

(2) Bu maddənin 1-ci hissəsinə uyğun olaraq təyin olunmuş vəkil müraciət olunan işin həcmində, lakin illik 120 saatı keçməmək şərti ilə peşəkar hüquqi yardım xidmətini göstərir. Bu vəkillərin xidmətləri üzrə ödənişlər müraciət əsasında hüquqi yardım göstərən vəkillərə verilən xidməthaqqı həcmində həyata keçirilir.

**Maddə 32. Peşəkar hüquqi yardımın göstərilməsi üzrə xidmət haqqının ödənilməsi**

(1) Peşəkar hüquqi yardımın göstərilməsi üzrə vəkillərə ödənilən xidmət haqqı bu Qanunun 29-cu maddəsinin 4-cü hissəsinə uyğun olaraq bağlanmış müqaviləyə əsasən ödənilir.

(2) İctimai vəkillərə xidmət haqqı sabit məbləğə uyğun olaraq ödənilir.

(3) Müraciət əsasında hüquqi yardım göstərən vəkillərə xidmət haqqı işin xarakterindən asılı olaraq Milli Şura tərəfindən müəyyənləşdirilmiş tariflərə uyğun ödənilir.

**Maddə 33. Vəkillərin reyestri**

(1) Milli Şura ərazi bürolarının fəaliyyət ərazilərinə görə ictimai və müraciət əsasında hüquqi yardım göstərən vəkillərin reyestrini aparır. Hər ilin 30 iyun və 31 dekabr tarixlərinə reyestr yenilənərək elan olunur.

(2) Ərazi büroları məhkəmə, cinayət təqibi və digər maraqlı orqanları məlumatlandırmaqla hər ay növbətçi vəkillərin siyahısını və iş qrafikini tutur.

**Maddə 34. Göstərilən xidmətlərin və hesabatların reyestri**

(1) Peşəkar hüquqi yardım göstərən vəkil olan verilmiş işin görülməsi bağlı aparılmış bütün hərəkətlərə dair yazılı dəlilləri saxlamalıdır.

(2) Vəkil göstərdiyi xidmətlərin reyestrini aparmalıdır. Reyestrdə hüquqi yardım almaq üçün müraciət etmiş şəxs barəsində fərdi məlumatlar, sayı göstərilmək şərti ilə prosessual hərəkətlərin aparılması yeri, tərəfləri, habelə xidmətin göstərilməsi ilə bağlı sərf olunmuş saat və digər zəruri məlumatlar qeyd olunurlar. Vəkil 3 iş günündən gec olmayaraq hüquqi yardımın göstərilməsi ilə bağlı həyata keçirdiyi hərəkətlərin reyestrini aparmalıdır.

(3) Reyestrin forması və orada məlumatların saxlanılması müddəti Milli Şura tərəfindən müəyyənləşdirilir.

(4) Milli Şura tərəfindən müəyyənləşdirilmiş formaya uyğun olaraq vəkillər illik və ya ərazi bürosunun tələbinə əsasən, görülmüş işlər barəsində hesabat təqdim edir.

**Maddə 35. İctimai birliklər tərəfindən peşəkar hüquqi yardımın göstərilməsi**

(1) Azərbaycan Respublikasında vəkillik fəaliyyətinin müstəsna dövrəsini təşkil edən işlərdən başqa ictimai birliklər peşəkar hüquqi yardım göstərmək hüququna malikdirlər.

(2) Bu Qanuna uyğun olaraq Milli Şura ərazi bürosu vasitəsi ilə ictimai birliklərlə peşəkar hüquqi yardımın göstərilməsi üzrə müqavilələr bağlaya bilər.

**Maddə 36. Peşəkar hüquqi yardımın keyfiyyətinin təmin edilməsi**

(1) Milli Şura peşəkar hüquqi yardımın göstərilməsinin keyfiyyətinin təmin edilməsi istiqamətində ərazi bürolarından hüquqi yardımın göstərilməsinin həcmi və növləri barədə məlumatlar ala və həmin məlumatların yoxlanılmasını tələb edə, monitorinqlər apara, peşəkar hüquqi yardım almış şəxslərin şikayətlərini araşdıra və xidmətin keyfiyyətinə nəzarət edə bilər.

(2) Hüquqi yardımın keyfiyyətinə nəzarət Milli Şura tərəfindən müəyyənlləşdirilmiş qayda və müddətlərdə həyata keçirilir.

(3) Milli Şura Vəkillər Kollegiyası ilə birgə peşəkar hüquqi yardımın göstərilməsi prosesinin monitorinqini həyata keçirir. Monitorinq və nəzarətin həyata keçirilməsi nəticəsində əldə olunmuş məlumatlar vəkillik haqqında qanunvericiliyə əsasən intizam tənbeh tədbirinin tətbiqi üçün əsas ola bilərlər.

(4) Keyfiyyətsiz hüquqi yardımın göstərilməsi bu Qanunun 29-cu maddəsinin 4-cü hissəsi və 35-ci maddəsinin 2-ci hissəsi ilə müəyyənləşdirilmiş müqaviləyə xitam verilməsi üçün əsas ola bilər.

## 5-ci fəsil. YEKUN VƏ KEÇİD MÜDDƏALAR

**Maddə 37. Qanunun qüvvəyə minməsi**

............